

# Tofiq Yaqublu Azərbaycan Respublikası na qarşı

**Dekabr 2023**

*Darril Braun,*
*Vircinia Universiteti Hüquq Fakültəsinin O.M. Vicars Professoru*

TRIALWATCH FAIRNESS REPORT
A CLOONEY FOUNDATION FOR JUSTICE INITIATIVE

## MÜƏLLİF HAQQINDA

**Darril Braun** Vircinia Universiteti Hüquq Fakültəsinin O.M. Vicars Professorudur. O, Cinayət Hüququ, Cinayət Mühakiməsi və Sübutlar sahəsi  üzrə yazılar yazır və tədris edir. Darril Braun Kalifornia-Los Anceles Universiteti, Oksford Universiteti, Kembric Universiteti, London Ali Hüquq Elmləri Universiteti və Meunster Universitetində qonaq professor və eyni zamanda araşdırmaçı olaraq çalışıb. O, çoxsaylı elmi məqalələrin, Azad Bazarda Cinayət Ədliyyəsi kitabının (Oksford Uni. Nəşr. 2016) müəllifi və Cinayət Prosesi adlı Oksford Təlimat kitabının (Oksford Uni. Nəşr. 2018) birgə redaktorudur

## KLUNİ FONDU TRIALWATCH TƏŞƏBBÜSÜ HAQQINDA

**TrialWatch** (Məhkəmə Gözətçisi, bundan sonra TrialWatch), **Clooney Foundation for Justice**-nin (Kluni Ədalət Fondu, bundan sonra Ədalət Fondu) təşəbbüs qrupudur. Onun missiyası ədalətsizliyi ifşa etmək, haqsız yerə həbs edilənlərin azad edilməsinə kömək etmək və bütün dünyada qanunun aliliyini təşviq etməkdir. TrialWatch qlobal miqyasda ən həssas olanlara, o cümlədən jurnalistlər, etirazçılar, qadınlar, LGBTQ+ şəxsləri və azlıqlara qarşı cinayət mühakimələrini izləyir və ədalətsiz məhkum edilmiş şəxslərin hüquqlarını müdafiə edir. TrialWatch topladığı məlumatlardan gələcəkdə ölkələrin ədliyyə sistemlərini qiymətləndirən Qlobal Ədalət İndeksini dərc etmək üçün istifadə edəcək.

*Bu hesabatda ifadə edilən hüquqi qiymətləndirmə və nəticələr müəllifə məxsusdur və Kluni Ədalət Fondunun fikirlərini əks etdirmir*

# İŞİN QISA İCMALI

**Vircinia Universiteti Hüquq Fakültəsinin O.M. Vicars Professoru və TrialWatch Ekspert Panelinin üzvü Darril Braun sözügedən məhkəmə işini “D” dərəcəsi üzrə qiymətləndirmişdir:**

Məhkəmə Monitorinqinin qeydlərinə, ictimaiyyət üçün acıq olan mənbələrə və məhkəmə hökmünə əsasən, Tofiq Yaqublunun həbsi Avropa İnsan Hüquqları Konvesiyası (AİHK) və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda (MSHP) öz əksini tapan universal ədalətli məhkəmə araşdırması normalarını pozmuşdur. Bu iş Azərbaycan hökumətini tənqid edən tanınmış jurnalist və siyasi fəal Tofiq Yaqublunun öncəki həbsi və mühakimə olunması üzrə tendensiyanın davamı hesab olunur. Həbsindən dərhal sonra hökumət rəsmiləri onun təqsirini ön mühakimə edən ictimai bəyanatlarla T. Yaqublunun təqsirsizlik prezumpsiyası hüququnu pozmuşdur. Həmin bəyanatlar, qərəzli məhkəmə prosesi və eyni zamanda daha geniş siyasi müstəvidə T. Yaqublu kimi bir sıra müxalif yönümlü siyasi fiqurlara qarşı hökümətin həyata keçirdiyi repressiyalar bu nəticəyə gəlməyə əsas verir ki, T. Yaqubluya qarşı olan ittihamlar, onun jurnalist və müxalifət lideri kimi fəaliyyət göstərməsinə maneçilik törətməklə, məhkəmə prosesindən sui-istifadəyə gətirib çıxarmışdır. Məhkəmə prosesi zamanı Tofiq Yaqublu vaxtaşırı olaraq şahidlərlə üzləşmək, onları çağırmaq, məhkəmə-tibbi ekspertizasının rəyini almaq, vəkilləri ilə əlaqə saxlamaq və ya başqa formada prosesdə iştirak etmək hüquqlarından məhrum edilib. Bundan əlavə, hakimin proses və qərarvermə zamanı olan hərəkətləri, T. Yaqublunun ədalətli və qərəzsiz məhkəməyə çatımlılıq hüququnun pozuntusuna səbəb olduğuna dair ciddi əsaslar yaratmışdır. Tofiq Yaqublunun həbsi və mühakimə olunması Avropa İnsan Hüquqları Konvensiyasının 6 və 18-ci maddələrinin pozuntusu ilə xarakterizə olunan qanunun aliliyinə ciddi zərbə vurmuşdur. Həmin pozuntuların Tofiq Yaqublunun mühakimə olunmasına və ona əhəmiyyətli zərər vurması səbəbiylə – ən əsası şərti olaraq azadlığa buraxılmazdan əvvəl dörd il üç ay müddətinə azadlıqdan məhrumetmə cəzası üzrə bir ildən artıq müddətə azadlıqdan məhrum edilməsi – sözügedən məhkəmə işi Əlavədə göstərilən metodologiyaya uyğun olaraq “D” səviyyəsi üzrə qiymətləndirilmişdir.

2020-ci ilin avqust-sentyabr aylarında Ədalət Fondunun TrialWatch təşəbbüsü azərbaycanlı müxalifət lideri və keçmiş jurnalist Tofiq Yaqublunun cinayət mühakiməsinin monitorinqini aparmışdır. Tofiq Yaqublu fərdə vintaçanla hücum etmə iddiası ilə “silahdan

və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməsilə müşayiət olunan xuliqanlıq" maddəsi üzrə təqsirli bilinərək, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. İttiham tərəfinin təqdim etdiyi sübutlardakı uyğunsuzluq və boşluqlar T. Yaqublunun məhkum edilməsinin aşkar şəkildə əsassız olduğu və təqsirsizlik prezumpsiyasını pozduğu qənaətinə gətirmişdir. Bundan əlavə, məhkəmə prosesi zamanı baş verən pozuntular da icraatın bütövlüyünü sarsıtmışdır. Siyasi repressiyaların sənədləşdirilmiş nümunələri və digər halları özündə ehtiva edən sübutlar, məhkəmə sisteminin Tofiq Yaqubluya qarşı silahlandırıldığını deməyə və işin siyasi qisas vasitəsi kimi qeyri-münasib motivlərlə qaldırıldığı qənaətinə gəlmək üçün əsaslar yaratmışdır.

*Əlavə Məlumat*

Tofiq Yaqublu keçmiş jurnalist, müxalif Müsavat Partiyası başqanının keçmiş müavini və müxalifət partiyaları və fəallarından ibarət koalisiya Demokratik Qüvvələrin Milli Şurasının yüksək vəzifəli üzvüdür. O, uzun müddət tanınmış hökumət tənqidçisi fəalı kimi tanınmış və Avropa İnsan Haqları Məhkəməsinin hakimiyyətin əməllərini qanunsuz olaraq qınadığı üç məhkəmə işi də daxil olmaqla, dəfələrlə cinayət və inzibati təqiblərə məruz qalmışdır.

Hazırkı sözügedən iş üzrə ittihamlar 2020-ci il martın 22-də Bakı bazarının yaxınlığında baş vermiş avtomobil qəzası ilə bağlıdır. İttiham tərəfinin iddiasına əsasən, Tofiq Yaqublunun yol hərəkəti qaydalarını pozması nəticəsində onun avtomobili Elxan Cəbrayılovun idarə etdiyi digər avtomobilə çırpılıb. Qəza zamanı Elxan Cəbrayılovun həyat yoldaşı Cəvahir Cəbrayılova da sərnişin qismində avtomobildə olub. İttiham tərəfinin iddiasına görə, qəza baş verdikdən sonra hər iki sürücü avtomobili kənara çəkmiş, daha sonra T. Yaqublu E. Cəbrayılov və onun xanımına qarşı şifahi və fiziki hücuma keçərək, E. Cəbrayılovun başına yumruq zərbələri və bədəninə vintaçan ilə xətər yetirmişdir. Müdafiə tərəfi bu iddianı mübahisələndirərək bildirmişdir ki, Tofiq Yaqublu, həyat yoldaşı Maya Yaqublu və Maya xanımın qardaşı oğlu İsa İsmayılovun bazarda alış-verişini bitirməsini gözləyərkən, bazarın yaxınlığında saxladığı avtomobilinə Elxan Cəbrayılov avtomobili ilə xəsarət yetirib. T. Yaqublunun sözlərinə görə, avtomobil qəzasından sonra E. Cəbrayılov və xanımı avtomobildən düşərək qarşıdurma yaratmaq məqsədilə T. Yaqubluya şifahi hücum ediblər- bu an Tofiq Yaqublu polisə zəng vurub və polis hadisə yerinə gələnə qədər o avtomobilində qalıb.

Avtomobil qəzasından dərhal sonra T.Yaqublu polis bölməsinə aparılıb və orada saxlanılıb. Ertəsi gün, 23 mart 2020-ci il tarixində Yaqubluya qarşı rəsmi ittiham irəli sürülüb və Bakı şəhəri Nizami Rayon Məhkəməsi onun barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçib. Sonradan bu müddət daha iki ay uzadılıb.

Tofiq Yaqublunun məhkəməsi 2020-ci ilin avqustunda başlayıb və 3 sentyabr 2020-ci ildə Bakı şəhəri Nizami Rayon Məhkəməsi onu xuliqanlıqda təqsirli bilərək 4 il 3 ay müddətinə cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə azadlıqdan məhrum edib. Məhkəmə qərarından verilən Apellyasiya şikayətləri təmin olunmasa da, T. Yaqublu 2021-ci ilin iyul ayında iki il altı ay sınaq müddəti olmaqla şərti azadlığa buraxılıb. T.

Yaqublunun bu iş üzrə Avropa İnsan Hüquqları Məhkəməsinə verdiyi şikayət hal-hazırda icraatdadır.

*Pozuntular*

Tofiq Yaqublu işi üzrə icraat onun *prima facie* ədalətli məhkəmə araşdırması hüququnun pozulması ilə nəticələndiyini deməyə əsas verir. Hadisənin ertəsi günü, Daxili İşlər Nazirinin mətbuat katibi mətbuata T.Yaqublunun təqsirsizlik prezumpsiyası hüququnu pozaraq onu hadisəni törətməkdə və E. Cəbrayılov və xanımına hücumda təqsirli bilən açıqlamalar verib. Təqsirsizlik prezumpsiyası Azərbaycan Hökumətinin də tərəfdaş olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt və İnsan Hüquqları üzrə Avropa Konvensiyası ilə qorunur.

İşin əvvəli təqsirsizlik prezumpsiyasının pozulması ilə xarakterizə olunduğu kimi, icraatın sonu və T. Yaqublunun məhkumluğu da bu prezumpsiyanının pozuntusu ilə müşayiət olunub. Bu prezumpsiyaya görə, ittiham tərəfi məhkəmədə sübutetmə yükünü daşıyır və mövcud şübhələr müdafiə tərəfinin xeyrinə həll edilir. Tofiq Yaqublu işində birinci instansiya məhkəməsi bu prezumpsiyanın tam əksinə, bütün qeyri-müəyyənliklər və ziddiyyətləri ittiham tərəfinin xeyrinə çevirərək, ittiham tərəfinin sübutetmə yükünü yerinə yetirməməsinə baxmayaraq, T.Yaqublunu təqsirli hesab etdi.

İlk növbədə, hökm, ittiham tərəfinin işindəki əhəmiyyətli uyğunsuzluqları, o cümlədən şahidlərin ziddiyyətli və uyğunsuz ifadələrini və ya müdafiə tərəfinin çarpaz dindirməsi zamanı aşkar etdiyi əsaslandırılmayan ifadələri nəzərə almadı. Misal olaraq, Tofiq Yaqublunun Elxan Cəbrayılovu döydüyünü gördüyünü deyən və ibtidai istintaq zamanı verdiyi ifadəsi latın əlifbası ilə olan və orada azərbaycanca "vintaçan" sözündən istifadə edən şahid məhkəmədə etiraf edib ki, o, latın əlifbasını başa düşmür və vintaçan sözünü azərbaycanca bilmir. Hadisə yerinə gələn polis əməkdaşı da daxil olmaqla, ittiham tərəfinin digər şahidləri ibtidai istintaq zamanı verilən ifadələrində vintaçan sözündən istifadə etsələr də, məhkəmədəki ifadələrində həmin sözü başa düşmədiklərini deyiblər. Digər şahidlərin hadisəni bilavasitə gördüklərinə dair ibtidai istintaq zamanı verilən ifadələrinə baxmayaraq, onlar qəzanın əsas təfərrüatlarını və T. Yaqublunun E. Cəbrayılova hücumunu xatırlamaqda çətinlik çəkiblər. Bütün bunlar ibtidai istintaq zamanı verilən ifadələrin şablona uyğun saxtalaşdırılmış ola biləcəyi sualını yaradıb.

E. Cəbrayılovun özünün də baş verənlərlə bağlı çaşqınlıq içində olduğu müşahidə edilib, o, polisə əvvəlcə dəmir parçası ilə vurulduğunu, məhkəmədə isə digər çoxsaylı ziddiyətlərlə yanaşı, vintaçanla vurulduğunu bildirib. Bunlar məhkəmə prosesinin gedişində ittiham tərəfinin işindəki qüsurlardan sadəcə bir neçəsi olub. Bununla belə, hökmdə, məhkəmənin ittiham tərəfinin sübutlarının etibarlılığına şübhə olmadığı qeyd olunur.

İkinci növbədə, məhkəmə müdafiə tərəfinin təqdim etdiyi bütün sübutları ya rədd edib, ya da onlara məhəl qoymayıb. Məsələn, məhkəmə Maya Yaqublunun bazardan qayıdarkən

həyat yoldaşını avtomobillərinin içində və Cəvahir Cəbrayılovanın həmin avtomobilin qapısını açmağa cəhd edərkən gördüyü ilə bağlı ifadəsini əsassız hesab etmişdir. Məhkəmə bu qərarı T. Yaqublunun həyat yoldaşı ilə olan qohumluq əlaqələrini əsas götürərək vermişdir. Bunun əksinə, hökm, E. Cəbrayılov və xanımının ifadələrinin birmənalı qəbul edilməsi ilə bağlı bənzər narahatlığı özündə ehtiva etmir. Həmçinin hökm, müdafiə tərəfinin iki şahidinin insidenti gördüklərini iddia edən, faktiki olaraq isə görmədiklərini dedikləri və ibtidai istintaq zamanı verdikləri ifadələrinin polis tərəfindən saxtalaşdırdığına dair ifadələrinə istinad etmir. Hökm, eyni zamanda, müdafiə tərəfinin təqdim etdiyi və orada C. Cəbrayılovanın T. Yaqublunun iddia edilən hücumu barədə məlumat vermək üçün polisə zəng etdiyi vaxtdan təxminən beş dəqiqə sonra E. Cəbrayılovun avtomobilini dayanacaqdan çıxararaq bazara doğru getdiyini göstərən videogörüntüləri də rədd edir.  Hökm sübhəli bir şəkildə videogörüntülərin ittiham tərəfinin sübutları və hadisələrin ümumi gedişatı ilə ziddiyət təşkil etməsi səbəbiylə qənaətbəxş olmadığı qənaətinə gəlir.

Üçüncüsü,hökm, müdafiə tərəfinin qaldırdığı, məsələn, təhlükəsizlik kameralarının hadisə anını niyə çəkməməsi; niyə məhkəmə-tibbi ekspertizasının vintaçanın üzərində barmaq izinin olmadığını müəyyən etməsinə baxmayaraq, ittiham tərəfinin T. Yaqublunun ondan əlcəksiz istifadə etdiyini iddia etdiyi; və eynilə, niyə məhkəmə-tibbi ekspertizasının E. Cəbrayılovun yüngül xəsarətlər aldığı, lakin üzərində qan izləri olmadığına dair rəy bildirməsinə baxmayaraq, polisin tərtib etdiyi protokolda Cəbrayılovun paltarlarının vintaçanla deşildiyi və üzərində qan izləri olması kimi daha geniş sualları qiymətləndirməmişdir. Yekun olaraq, məhkəmənin ittiham tərəfinin xeyrinə müdafiə tərəfinin əks arqumentləri ilə birlikdə iddiaları bütövlükdə əsassız olaraq rədd etməsi təqsirsizlik prezumpsiyasının pozuntusuna gətirib çıxarmışdır.

Təqsirsizlik prezumpsiyasının pozuntusu ilə yanaşı, məhkəmə MSHP və AİHK ilə qorunan ədalətli məhkəmə araşdırmasına dair əsas hüquqların pozuntusuna da səbəb olmuşdur. Hakim, ittiham tərəfinin şahidlərinin çarpaz dindirilməsi zamanı müdafiə tərəfinə dəfələrlə maneçilik törətmiş, suallarına məhəl qoymamış və bununla da, onların həmin ifadələrdəki uyğunsuzluqları araşdırmasının qarşısını almışdır. Bununla da T. Yaqublunun şahidləri çağırmaq və dindirmək hüququ; T. Yaqublunun müdafiə tərəfinin müvafiq şahidlərini, o cümlədən hadisə yerindəki şahidlərin çağırılması tələbinin rədd edilməsi ilə şahid çağırma və dindirmə tələbi ilə bağlı hüququ; eşitmə problemi olan T. Yaqublunun məhkəmə prosesi zamanı şüşə kabində saxlanması onun prosesi tam izləməsinə mane olmuş və bununla onun məhkəmə prosesində səmərəli iştirak etmək hüququ və; Tofiq Yaqublunun şüşə kabində təcrid olunaraq saxlanması məhkəmə prosesi zamanı onun vəkili ilə əlaqə saxlama imkanlarını məhdudlaşdırmış, bilavasitə vəkil vasitəsilə səmərəli müdafiə olunma hüquqlarını pozmuşdur.

Bundan başqa, hakimin davranışları - müdafiə tərəfinin ittiham tərəfinin şahidlərinin dindirilməsinə maneçiliyi, müdafiə tərəfinin öz şahidlərini çağırmasına maneə törədilməsi, Tofiq Yaqublunun şüşə kabindən çıxarılması və vəkillərinin yanında əyləşdirilməsi ilə

bağlı vəsatətlərinin rədd edilməsi və ittiham tərəfinin iddiaları sübut edə bilməməsinə rəğmən T. Yaqublunun məhkum edilməsi qərarı verilməsi- T. Yaqublunun qərəzsiz məhkəmə prosesinə çatımlılığı hüququnu pozmaqla, məhkəmənin potensial qərəzliliyi ilə bağlı ciddi narahatlıqlar doğurmuşdur.

*Nəticə*

MSHP və AİHK müttəhimlərə qarşı siyasi qisas kimi qeyri-müvafiq motivlər əsasında qaldırılan məhkəmə proseslərindən qorunma təminatları verir. Sözügedən məhkəmə işində, Tofiq Yaqublunun hökuməti tənqid etdiyinə görə hədəfə alındığını və ona qarşı olan ittiham və mühakimənin Konvensiya üzrə müəyyən edilən məhkəmə prosesi standartlarını pozduğunu demək üçün əsaslar vardır. Digər məsələlərlə yanaşı, T. Yaqublunun ədalətli məhkəmə araşdırması hüququnun dəfələrlə pozulması, ittiham tərəfinin işindəki uyğunsuzluqlar, boşluqlar və müəyyən sübutların saxtalaşdırıla biləcəyinə dair əlamətlər, məhkəmədən əvvəl dövlət rəsmilərinin kinli bəyanatları, digər müxalif fikirlərin hökumət tərəfindən cinayət təqibi yolu ilə susdurulması ilə bağlı sənədləşmiş faktlar və Tofiq Yaqublunun özünün digər saxta inzibati və cinayət işləri üzrə hədəfə alınması halları, Azərbaycan hökumətinin hazırki cinayət işini T. Yaqublunun hökümətə qarşı davamlı etirazlarına görə susdurma və cəzalandırma məqsədi ilə açdığını deməyə imkan verir.

# ƏLAVƏ MƏLUMAT

## A. SİYASİ VƏ HÜQUQİ KONTEKST

Azərbaycan Respublikası Konstitusiyasına əsasən beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olmaqla[1] "fikir və söz azadlığı"[2], eləcə də "cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququnun"[3] müdafiəsini təmin edən bir sistem təsbit etdiyi halda, insan haqları qrupları reallıqda "hökumətin müxalif fikirlərə qərəzli münasibətdə"[4] olması faktını təsdiqləyir.

Prezident İlham Əliyev və lideri olduğu Yeni Azərbaycan Partiyası (YAP) 2003-cü ildən bəri hakimiyyətdədir və o bu hakimiyyəti "saxta"[5] kimi xarakterizə olunan seçki vasitəsi də daxil olmaqla tədricən daha da gücləndirib. İlham Əliyev, 2016-cı ildə keçirdiyi, "həbslər və hədə-qorxu ilə müşayiət olunan" mübahisəli referendumla prezidentlik müddətini uzatmış (əvvəlki referendumda müddət məhdudiyyətləri artıq ləğv edilmişdi) və parlamenti buraxmaq səlahiyyəti əldə etmişdi.[6] 2018-ci ildə isə beynəlxalq seçki müşahidəçilərinin "məhdud siyasi mühitdə və demokratik seçkilər üçün ilkin şərt olan əsas hüquq və azadlıqları məhdudlaşdıran hüquqi çərçivədə" baş verdiyini ifadə etdiyi prezident seçkiləri həyata keçirildi."[7] İ. Əliyev, bu seçkilərdə 86 faiz səs çoxluğu qalib gəldi.[8] 2020-ci ildə keçirilən növbədənkənar parlament seçkiləri zamanı Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və Avropa Şurasını (AŞ) təmsil edən seçki

---

[1] Azərbaycan Respublikası Konstitusiyası, 1995-ci il, maddə 12.2, 148, https://www.constituteproject.org/constitution/Azerbaijan_2016.pdf?lang=en.

[2] *Id.* Maddə 47.

[3] *Id.* Maddə 54.

[4] Bax, İnsan Hüquqları Gözətçisi (Human Rights Watch, bundan sonra HRW), *Dünya üzrə Hesabatı 2022: Azərbaycan, 2021* və 2022 hadisələri, https://www.hrw.org/world-report/2022/country-chapters/azerbaijan. *Bax həmçinin,* Beynəlxalq Əfv Təşkilatı (Amnesty İnternational, bundan sonra Beynəlxalq Əfv Təşkilatı) *Azərbaycan Hakimiyyətinin Covid-19-un yayılması şəraitində müxalif fikirlərə qarşı təzyiqləri və fəalların həbsini dayandırmalıdır,* 27 may 2020-ci il, https://www.amnesty.org/en/wp-content/uploads/2021/05/EUR5524122020ENGLISH.pdf.

[5] İnsan Hüquqları Fondu (Human Rights Foundation, bundan sonra HRF), *Əliyev saxtalaşdırılmış seçkilərdə dördüncü müddətə seçilməsini təmin etdi.*, April 12, 2018, available at https://hrf.org/azerbaijans-aliyev-secures-a-fourth-term-in-rigged-elections/.

[6] Reuters, *Azərbaycanda Prezidentin Səlahiyyət Müddətini Uzadılması bağlı Referendum Keçirilir,* 27 sentyabr 2016-cı il, https://www.reuters.com/article/us-azerbaijan-presidency-term-idUSKCN11W1L7. *See also* Azadlıq Radiosu Avropa Bürosu, *Azərbaycan Parlamenti Prezidentin səlahiyyət müddətinin uzadılması ilə bağlı referendumun keçirilməsini təsdiqləyib.*, 26 dekabr 2008-ci il, https://www.rferl.org/a/Azerbaijani_Parliament_Approves_Referendum_On_Presidential_Term_Limit/1364057.htl.

[7] ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Seçkiləri Müşahidə Missiyası Yekun Hesabat, 2018,-ci il https://www.osce.org/files/f/documents/2/5/388580_1.pdf.

[8] Azadlıq Radiosu Avropa Bürosu, *Azərbaycan Prezidenti Rəqabətsiz Seçki olaraq Tənqid Edilən Seçkini* Dördüncü Dəfə Qazandı, 11 aprel 2018-ci il, https://www.rferl.org/a/azerbaijan-aliyev-expected-win-reelection-april-11-vote/29158177.html.

müşahidəçiləri “sayma və cədvəllərin tərtibi zamanı baş verən əhəmiyyətli prosedur pozuntularını aşkarlamış və bunun, nəticələrə təsir edə biləcəyi ilə bağlı narahatlıqlarını” ifadə etdilər.[9] Seçki müşahidəçiləri daha sonra digər “əsas hüquq və azadlıqlara” müdaxilə ilə yanaşı, seçki qutularına bülletenlərin topa ilə atılması[10] faktlarını da qeyd etdi. Nəticə etibarilə, İlham Əliyev və lideri olduğu YAP böyük üstünlüklə qalib gəldi.[11]

Hakimiyyətin seçki proseslərini manipulyasiya etdiyi iddiaları ilə yanaşı, Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) kimi siyasi müxalifət qruplarının üzvlərinə, hökuməti tənqid edənlərə, o cümlədən jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı ədalət mühakiməsini “silahlandırdığı” bildirilir.[12] Məsələn, Avropa İnsan Haqları Məhkəməsi, 2018-ci il işində “hökumət tənqidçilərinin, vətəndaş cəmiyyəti fəallarının və hüquq müdafiəçilərinin qisas xarakterli təqibini və qanunun aliliyinə zidd cinayət qanunundan sui-istifadə yolu ilə əsassız tutulma və həbslərini narahatlıq doğuran bir hal kimi”[13] qeyd edib. Bütövlükdə, Azərbaycana qarşı qaldırılan son işlərdə Məhkəmə, Azərbaycan hökumətinin ədalət mühakiməsi sistemini təhrif edərək, Konvensiyası ilə qorunan hüquqlara qeyri-qanuni əsaslandırılmış məhdudiyyətləri qadağan edən 18-ci maddəni dəfələrlə pozduğunu müəyyən edib.[14] Bununla bağlı, Avropa Şurası Parlament Assambleyası da fərdlərin

---

[9] Bax Reuters, Azərbaycanın Hakim Partiyası Növbədənkənar Parliament Seçkilərini Qazanır, 9 fevral 2020-ci il, https://www.reuters.com/article/us-azerbaijan-election-results/azeri-ruling-party-leads-in-snap-parliamentary-vote-idUSKBN2030RH

[10] *Id*.

[11] EurasiaNet, *Azərbaycanda Sürpriz Seçkilər Gözlənilən Nəticələr Verir.*, 10 fevral 2020-ci il, https://eurasianet.org/in-azerbaijan-surprise-elections-yield-usual-results.

[12] *Bax Azadlıq Evi (*Freedom House, bundan sonra Freedom House) *Dünya üzrə Azadlıqlar 2022: Azərbaycan, 2021 və 2022-ci illər üzrə inkişaf*, https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2022; HRW, *Təqib, Həbs, Sürgün*, 20 oktyabr 2016-cı il, https://www.hrw.org/report/2016/10/20/harassed-imprisoned-exiled/azerbaijans-continuing-crackdown-government-critics.

[13] Avropa İnsan Hüquqları Məhkəməsi*, Əliyev Azərbaycana qarşı iş*, Ərizə №. 68762/14 və71200/14, 20 sentyabr 2018-ci il, ingilis versiya para. 223.

[14] *Bax* Avropa İnsan Hüquqları Məhkəməsi, *İbrahimov və Məmmədov Azərbaycana qarşı*, Ərizə №. 63571/16 və others, 13 fevral 2020-ci il, para. 157 (“Məhkəmə hesab edir ki, ərizəçilərin azadlığının məhdudlaşdırılması Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin c bəndində nəzərdə tutulan məqsədlərdən kənar məqsədlər üçün tətbiq edilmişdir və bu tədbirlərin əsl məqsədi ölkənin keçmiş prezidentinin heykəli üzərində çəkdikləri qraffitiyə və hökumət əleyhinə səsləndirdikləri siyasi şüarlara görə ərizəçiləri cəzalandırmaq olmuşdur”); Avropa İnsan Hüquqları Məhkəməsi, *Natiq Cəfərov Azərbaycana qarşı*, Ərizə № 64581/16, 7 noyabr 2019-cu il, para. 70 (“Yuxarıda göstərilən halların məcmusu onu göstərir ki, mübahisələndirilən tədbirlərin faktiki gizli məqsədi ərizəçini aktiv siyasi fəaliyyətinə görə cəzalandırmaq və onun referendum kampaniyasında müxalifətin nümayəndəsi kimi iştirakının qarşısını almaq olub. Bu mülahizələrin işığında Məhkəmə hesab edir ki, ərizəçinin azadlığının məhdudlaşdırılması Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin c bəndində nəzərdə tutulmayan digər məqsədlər üçün qoyulub.”); Avropa İnsan Hüquqları Məhkəməsi*, Əliyev Azərbaycana qarşı iş*, Ərizə №. 68762/14 və 71200/14, 20 sentyabr 2018-ci il, ingilis versiya para. 215 (“Yuxarıda göstərilən halların məcmusu –ərizəçinin Konvensiya mexanizmləri qarşısında ərizəçiləri təmsil edən vəkil statusu, ona qarşı irəli sürülən ittihamların mahiyyəti və məğzi, dövlət məmurlarının bəyanları, axtarış və götürmənin əsassız aparılması, QHT fəaliyyətinin qanunvericiliklə tənzimlənməsinin ümumi konteksti, ərizəçinin toplaşma

"siyasi səbəblərə görə" həbsi və mühakimə olunmasını pisləyib və onları azad etməyə çağırıb.[15]

Qeyd etmək lazımdır ki, siyasi fəallara qarşı hədə-qorxu gəlmək və onları çəkindirmək üçün cinayət işlərinə nisbətdə daha az məhkəmə müdafiəsi tələb edən, lakin həbslə nəticələnə biləcək inzibati icraat işləri qaldırılır.[16] Bu inzibati xətalara misal olaraq xırda xuliqanlıq[17], mitinq və piketlərin təşkili və keçirilməsi haqqında qanunvericiliyin pozulması[18], polisə və ya hərbçiyə itaətsizlik[19] və ya məhkəməyə hörmətsizlik nümayişi[20] kimi hallar daxildir.

Eyni zamanda, hökumət tanınmış hökumət tənqitçilərini hədəfə almaq məqsədilə, onlara qarşı xarici müşahidəçilər tərəfindən də "saxta" kimi qələmə verilən cinayət işləri açmışdır.[21] Daha çox rast gəlinən ittihamlara qanunsuz olaraq narkotik və ya silah saxlamaq, vergidən yayınma, xuliqanlıq, nifrət və zorakılığa təhrik etmə daxildir.[22] Bu hallar inzibati işlərdən fərqli olaraq daha uzunmüddətli həbs cəzası ilə nəticələnə bilir.

Bunlara misal olaraq, AXCP sədrinin müşaviri Məmməd İbrahim 2016-cı ildə xuliqanlıq ittihamı ilə 3 il müddətinə azadlıqdan məhrum edilib.[23] 2021-ci ildə isə ən azı 15 AXCP lideri və fəalı müxtəlif növ xuliqanlıq, təhrik və digər cinayət ittihamları ilə mühakimə

---

azadlığı hüququna təsirləri və ölkədə hüquq müdafiəçiləri ilə bağlı ümumi vəziyyət – hakimiyyətin hərəkətlərinin qeyri-münasib səbəblərdən irəli gəldiyini və bu tədbirlərin əsl məqsədinin ərizəçini insan hüquqları sahəsində fəaliyyətinə görə susdurmaq və cəzalandırmaq, habelə onun bu fəaliyyəti davam etdirməsinə mane olmaq olduğunu göstərir. Bu mülahizələrin işığında Məhkəmə hesab edir ki, ərizəçinin hüquqlarının məhdudlaşdırılması Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin (c) və 8-ci bəndinin 2-ci bəndində nəzərdə tutulmayan digər məqsədlər üçün qoyulub.")

[15] Avropa Şurası Parlament Assambleyası, Azərbaycanda Qeydə Alınan Siyasi Məhbusların Barədə İşlər, 2322 saylı Qətnamə, 30 yanvar 2020-ci il, http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=28584&lang=en.

[16] Demokratik Təşəbbüslər İnstitutu, "İnzibati həbslər və pis rəftarla bağlı qanunvericiliyin təhlili haqqında" siyasət sənədi, 2019-cu il, https://www.idi-aze.org/files/pdf/2021-11-22/zm7Ila9sS2za8Cw2tg0AbhPFRQcZjdDE6iya31Op.pdf.

[17] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, 2000-ci il, maddə 296.

[18] *Id*. Maddə 298.

[19] *Id*. Maddə 310.

[20] *Id*. Maddə 311.

[21] *Bax* Human Rights Watch, *Təqib, Həbs, Sürgən*, 20 oktyabr 2016-cı il, https://www.hrw.org/report/2016/10/20/harassed-imprisoned-exiled/azerbaijans-continuing-crackdown-government-critics.

[22] *Bax Id*.

[23] *Id*.

olunub.[24] Sülh və Demokratiya İnstitutu hesabatında 2022-ci ilin sonunda Azərbaycanda azı 99 siyasi məhbusun olduğunu bildirib.[25]

Bundan əlavə, həbs olunanların fiziki zorakılığa və işgəncələrə məruz qalması barədə məlumatlar da daxil olub.[26] 2017-ci ildə məşhur bloqqer Mehman Hüseynov "polis əməkdaşlarının onun gözlərini və ağzını dəsmalla bağladıqdan sonra, başına torba keçirib, elektroşokla qasıq nahiyəsinə vurub yumruqla burnunu qanatdıqlarını" ictimaiyyətə açıq şəkildə bəyan etdikdən sonra böhtana görə iki il müddətinə azadlıqdan məhrum edilib.[27]

*Jurnalistlərin Hədəf Göstərilməsi*

Hökumət mütəmadi olaraq jurnalistləri təqib edir və  yaonları cinayət məsuliyyətinə cəlb edir. "Sərhədsiz Reportyorlar" Təşkilatının (RSF) 2023-cü il dünyada mətbuat azadlığının indeksini açıqladığı sorğuda Azərbaycan 180 ölkə arasında 151-ci yerdə qərarlaşıb.[28] RSF-nin dediyinə görə, Prezident Əliyev "yerdə qalan tənqidçiləri amansızcasına susdurduğuna görə," "faktiki olaraq bütün media sektoru rəsmi nəzarət altındadır."[29]

Məsələn, 2020-ci ilin iyununda yeganə müstəqil saytlardan birinin redaktoru Əfqan Sadıqov hədə-qorxu ilə tələb etmə maddəsi ilə ittiham olunaraq 7 il müddətinə azadlıqdan məhrum edilib.[30] Jurnalistləri Müdafiə Komitəsi bu işi "uydurma" və jurnalist fəaliyyətinə görə hökümətin qisası xarakterli cavabı kimi qiymətləndirib.[31] Bir neçə gün sonra müstəqil xəbər redaktoru Polad Aslanov İrana casusluqda təqsirli bilinərək dövlətə xəyanət ittihamı ilə 16 il müddətinə azadlıqdan məhrum edilib.[32] RSF ittihamları "qondarma" kimi səciyyələndirərək, Aslanovun "tamamilə əsassız məhkum edildiyini" bildirib.[33] Həmçinin, 2020-ci ilin sonunda hüquq müdafiəçisi və jurnalist Elçin Məmməd oğurluq və qanunsuz

---

[24] HRW, *Dünya üzrə Hesabatı 2022: Azərbaycan, 2021* və 2022 hadisələri, https://www.hrw.org/world-report/2022/country-chapters/azerbaijan#ab6e07.

[25] "The Azeri Times", *Azərbaycanda siyasi məhbusların yenilənmiş siyahısına 99 nəfərin adı daxil edilib, 1 oktyabr* 2022-ci il, https://azeritimes.com/2022/10/01/updated-list-of-political-prisoners-in-azerbaijan-includes-the-names-of-99-people/.

[26] HRW, *İşgəncə Azərbaycanda "Sistematik və Endemikdir",* 25 iyul 2018-ci il, https://www.hrw.org/news/2018/07/25/torture-systemic-and-endemic-azerbaijan.

[27] HRW, *Messencerin Azərbaycanda Həbsi*, 7 mart 2017-ci il, https://www.hrw.org/news/2017/03/07/jailing-messenger-azerbaijan.

[28] Sərhədsiz Reportyorlar, *Azərbaycan* 2023, https://rsf.org/en/country/azerbaijan.

[29] *Id*.

[30] Jurnalistləri Müdafiə Komitəsi, azərbaycanlı jurnalist Əfqan Sadıqov 7 il müddətinə azadlıqdan məhrum edilib, 4 noyabr 2020-ci il, https://cpj.org/2020/11/azerbaijani-journalist-afgan-sadygov-sentenced-to-seven-years-in-prison/.

[31] *Id*.

[32] Sərhədsiz Reportyorlar, *Azərbaycan: Qeyri-insani rəftar həbsdə olan jurnalistin həyatını təhlükə altında qoyur, fevral* 2021-ci il, https://rsf.org/en/azerbaijan-inhuman-treatment-putting-imprisoned-journalist-s-life-danger.

[33] *Id*.

silah saxlamaqda təqsirli bilinərək 4 il müddətinə azadlıqdan məhrum edilib.[34] Digər işlərdə olduğu kimi, Beynəlxalq Əfv Təşkilatı ittihamları "uydurma" və "Azərbaycanda bütün müxalif fikirlərə qarşı davam edən amansız repressiyaların bir hissəsi" hesab etmişdir.[35]

Qeyd edilən bu tendensiyada hələ də azalma əlamətləri müşahidə edilmir. 2022-ci ilin sentyabrında müstəqil jurnalist Əvəz Zeynallı rüşvətxorluq ittihamı ilə həbs edilib və saxlanılıb.[36] Qeyd etmək lazımdır ki, onun nəşrləri mütəmadi olaraq ölkədə insan hüquqlarının pozulması və korrupsiya ilə bağlı xəbərləri əhatə edir. Əvəz Zeynallının məhkəmə işi hazırda davam etməkdədir. 2022-ci ilin may ayında tez-tez insan hüquqları pozuntuları ilə bağlı məhkəmələri işıqlandıran jurnalist Aytən Məmmədova yaşadığı binada boğazına bıçaq dayayan şəxs tərəfindən hücuma məruz qalıb və ondan reportajlarını dayandırmağı əmr edib.[37] Eynilə, 2023-cü ilin iyununda Azərbaycan polisi ekoloji aksiyaları işıqlandıran jurnalistləri döyüb və saxlayıb.[38]

Qeyd edək ki, 2021-ci ilin sonlarında Azərbaycanda bütün jurnalistlərin rəsmi orqanlarda qeydiyyatdan keçməsini tələb edən qanun qəbul edildi. Bu qanun şəxsin ev ünvanı və bank hesabı rekvizitləri kimi şəxsi məlumatların verilməsini və eləcə də faktların və hadisələrin "obyektiv" şərhinə riayət olunmasını nəzərdə tutur.[39] Qanun, eyni zamanda media orqanlarından xaricdən maliyyə qəbulunu və nəşrlərin xarici sifarişli olmasını qadağan edir.[40]

*Məhkəmə və Prosesual Hüquqlar Üzrə Pozuntular*

ABŞ Dövlət Departamenti Azərbaycanda məhkəmə sisteminin müstəqilliyi və qərəzsizliyini ciddi narahatlıq doğuran hal kimi xarakterizə edərək, hakimlərin və prokurorların siyasi motivli  işlərdə hakimiyyətdən göstərişlər alması ilə bağlı "əsaslı

---

[34] Amerikanın Səsi, *Azərbaycan həbsdə olan jurnalistin şərti azadlığa buraxılması ilə bağlı apelyasiya şikayətini rədd etdi*, 15 iyul 2022, https://www.voanews.com/a/azerbaijan-denies-parole-appeal-of-jailed-journalist/6659412.html.
[35] Amnesty International, İnsan Hüquqları Müdafiəçisi Məhkum Edildi: Elçin Məmməd, 13 noyabr 2020-ci il, https://www.amnesty.org/en/documents/eur55/3340/2020/en/.
[36] Amerikanın Səsi, Azərbaycan Jurnalist və onun Vəkilini Həbs Etdi, 13 sentyabr 2022-ci il., https://www.voanews.com/a/azerbaijan-detains-a-journalist-and-his-lawyer/6746340.html.
[37] Müharibə və Sülh Hesabatı İnstitutu (Institute for War and Peace Reporting, bundan sonra IWPR) *Azərbaycanlı Jurnalist Yuxarı İnstansiya ilə Təhdid Edilib, 13 may 2022-ci il*, https://iwpr.net/global-voices/azerbaijani-journalist-threatened-over-high-profile-trial.
[38] Jurnalistləri Müdafiə Komitəsi, Azərbaycan Polisi Ekoloji Etirazı İşıqlandıran Jurnalistləri Saxlayıb, 30 iyun 2023-cü il., https://cpj.org/2023/06/azerbaijan-police-detain-beat-journalists-covering-environmental-protest/
[39] Azadlıq Radiosu Avropa Bürosu, *Azərbaycanda Yeni Qəddar Media Qanunu Hökumətə Hansı Xəbərin Verilməsi ilə bağlı Qərar Vermək Səlahiyyəti Verir, 20 fevral 2022-ci il.*, https://www.rferl.org/a/azerbaijan-media-law-journalism-objective/31711614.html.
[40] *Id*.

iddialara” istinad edir.[41] Dövlət Departamentinin ölkələrin insan hüquqları praktikasına dair 2022-ci il hesabatında “məhkəmə korrupsiyalaşmış, səmərəsiz və qeyri-müstəqil orqan olaraq qalır” kimi qiymətləndirir. Hesabata əsasən, bir çox hökmlər hüquqi baxımdan əsassız və məhkəmə prosesi zamanı təqdim olunan sübutlarla demək olar əlaqəsi olmayan və bir çox hallarda da nəticələri əvvəlcədən müəyyən edilən kimi səciyyələndirilir.[42]

İnsan Hüquqları üzrə Helsinki Fondunun müşahidəsinə əsasən, hakimiyyətlər bölgüsü prinsipi “Azərbaycanda artıq mövcud deyil”[43] və bunun səbəblərindən biri kimi Ədliyyə Nazirinin, Məhkəmə Hüquq Şurasına – hakimlərin təyinatını idarə edən qurum[44]- rəhbərlik etməsində görür. Helsinki Fonduna görə, hökuməti tənqid edənlərin məhkəmələri zamanı “məhkəmələr adətən ittiham tərəfinin (yazılı) vəsatətlərini qəbul edir ki, bu da, məhkəmənin rolunu sadəcə olaraq ittihamın iddialarını birbaşa təsdiqləməsi ilə məhdudlaşdırır”.[45]

Qeyd edək ki, Freedom House-un 2022-ci ildə ölkələrin mülki və siyasi hüquqlara hörmət olunması ilə bağlı illik sorğusu Azərbaycanı həm məhkəmə sisteminin müstəqilliyi, həm də prosesual hüquqlar sahəsində dörd baldan sıfıra bərabər qiymətləndirir və qeyd edir: “məhkəmələrin siyasi müstəqilliyinin olmaması xüsusilə müxalif siyasi fərdlərə, fəallara və tənqidçi jurnalistlərə qarşı qaldırılan bir çox qondarma və ya buna bənzər işlərdə aydın görünür. Siyasi məhbuslar onlara qarşı hüquqi yardıma çatımlılığının məhdudlaşdırılması, sübutların saxtalaşdırılması və gizlədilməsi, eləcə də fiziki zorakılıq yolu ilə etiraflar alınması ilə bağlı məlumatlar vermişlər.”[46]

## B. MƏHKƏMƏ İŞİNİN TARİXÇƏSİ

Tofiq Yaqublu 62 yaşında, keçmiş jurnalist, müxalif Müsavat Partiyası başqanının keçmiş müavini, müxalifət partiyaları və fəallarından ibarət koalisiya olan Demokratik Qüvvələrin

---

[41] ABŞ Dövlət Departamenti, İnsan Hüquqları Təcrübələri üzrə 2022 Ölkə Hesabatları: Azərbaycan, 2023.https://www.state.gov/reports/2022-country-reports-on-human-rights-practices/azerbaijan/.
[42] *Id*.
[43] Helsinki İnsan Hüquqları Fondu, Azərbaycanda Məhkəmə Sisteminin Fəaliyyəti və Onun İnsan Hüquqları Müdafiəçilərinin Ədalətli Mühakiməsinə Çatımlılıq hüququna Təsiri, sentyabr 2016, https://www.nhc.nl/assets/uploads/2017/07/Functioning-of-the-Judicial-System-in-Azerbaijan-and-its-Impact-on-the-Right-to-a-Fair-Trial.pdf.
[44] *Id*.
[45] *Id*.
[46] Freedom House, *Dünyada Azadlıq 2022: Azərbaycan, 2021 və 2022-ci illər üzrə inkişaf,* https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2022.

Milli Şurasının yüksək vəzifəli üzvüdür.[47] O uzun müddətdir ki, hökümət tənqidçisi olaraq tanınır.[48]

*Tofiq Yaqublunun Öncədən Hədəf Göstərilməsi*

Azərbaycan hakimiyyəti Tofiq Yaqublunu fəaliyyəti dövründə cinayət işi də daxil olmaqla dəfələrlə təqib edib. Məsələn, 1998-ci ildə T. Yaqublu icazəsiz kütləvi etiraz aksiyasında iştirak etməkdə təqsirli bilinərək, iki il altı ay (2 il 6 ay) islah işləri cəzasına məhkum edilib.[49] 2013-cü ildə müstəqil "*Yeni Müsavat*" qəzetində işləyərkən İsmayıllı şəhərində baş verən iğtişaşları işıqlandırmaq üçün gedərkən orada polis tərəfindən saxlanılıb və polisin müşayiəti ilə yenidən Bakıya qaytarılıb.[50] Daha sonra o, ictimai iğtişaşlara səbəb olan hərəkətləri təşkil etmə və bu aksiyalarda iştirak etmə, eyni zamanda dövlət məmurlarına qarşı, onların həyat və ya sağlamlığı üçün təhlükə törədən müqavimət və ya zorakılıq göstərmə maddələri ilə ittiham olunub.[51] Hakimiyyət qurumlarının daha sonrakı iddialarına əsasən, o, bir qrup şəxsi hökumət binasına daxil olmağa, polisin əmrlərinə tabe olmamağa, zorakılıqla polis əməkdaşlarına müqavimət göstərməyə və nəqliyyatın hərəkətini pozmağa təhrik edib.[52] O, iki ay müddətinə istintaq təcridxanasında saxlanıb, sonradan bu müddət üç dəfə, əvvəlcə daha iki ay, daha sonra üç ay və nəhayət, daha üç ay uzadılıb.[53]

Tofiq Yaqublunun məhkəməsi 2013-cü ilin noyabrında başlayıb və o, 2014-cü ilin martında müxalifətçi və digər müttəhim İlqar Məmmədovla birlikdə mühakimə olunub. O, beş il müddətinə azadlıqdan məhrum edilib (İlqar Məmmədov yeddi il müddətinə azadlıqdan məhrum edilib).[54] Hər iki şəxs ayrı-ayrılıqda Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edib və Məhkəmə hüquqların pozuntusunu tanıyıb. Tofiq Yaqublunun işində Məhkəmə xüsusi olaraq qərara aldı ki, onun saxlanması və həbsi Avropa Konvensiyasının 5-ci maddəsini (azadlıq və toxunulmazlıq hüququ) pozub, çünki hökumət onun cinayət əməli törətdiyinə dair "əsaslı şübhənin" olduğunu sübut edə

---

[47] HRW, Azərbaycan: *Müxalifət lideri həbs edildi,* 25 mart 2020-ci il. https://www.hrw.org/news/2020/03/25/azerbaijan-opposition-leader-arrested.

[48] *Id*.

[49] Balcani Caucaso, *Azərbaycan: Yaqublu işi,* 14 sentyabr 2020-ci il, https://www.balcanicaucaso.org/eng/Areas/Azerbaijan/Azerbaijan-the-Yagublu-affair-204838.

[50] Avropa İnsan Hüquqları Məhkəməsi*, Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №. 31709/13, 5 noyabr 2015-ci il, para. 7-11.

[51] *Id*. Para. 15-17. Birinci ittiham sonradan daha ağır cəza nəzərdə tutan "kütləvi iğtişaşların təşkili" ittihamı ilə əvəz olundu.

[52] *Id*. Para. 17.

[53] *Id*. Para. 18-38.

[54] Beynəlxalq Əfv Təşkilatı, *Hüquq Müdafiəçiliyinin Təqsiri: Azərbaycanın İnsan Hüquqları Müdafiəçiləri və Barmaqlıqlar Arxasında Aktivistlər,* 4 mart 2015-ci il, https://www.amnesty.org/download/Documents/EUR5510772015ENGLISH.pdf.

bilməyib.[55] İki il həbs müddətindən sonra T. Yaqublu 2016-cı ilin martında prezidentin əfv sərəncamı ilə azadlığa çıxıb.[56] Tofiq Yaqubluya qarşı başlanmış cinayət işlərindən savayı, o, çoxsaylı inzibati həbslərə də məruz qalıb.[57] Məsələn, 2019-cu ilin oktyabrında Yaqublu Bakının mərkəzində icazəsiz aksiyada iştirak etdiyinə görə həbs edilmiş və bir aylıq həbs cəzasına məhkum edilmişdi.[58] Tofiq Yaqublu həbs zamanı polis tərəfindən döyüldüyünü və ictimaiyyətdən üzr istəməyə məcbur edildiyi iddia etmişdi.[59] HRW-a görə, bu iddialarla bağlı heç bir "effektiv araşdırma" aparılmayıb.[60] Avropa İnsan Hüquqları Məhkəməsi 2021-ci il qərarında T. Yaqublunun 2012-ci ildə inzibati xətalara görə tutulma və həbsinin qanunsuz olduğunu müəyyən etmiş və bildirmişdir ki, yerli məhkəmələr "həbsin siyasi motivli olduğu barədə ərizəçinin arqumentlərinə məhəl qoymamış və sadəcə polis tərəfindən irəli sürülən ittihamları və halları təkrarlamış", bununla da məhkəmə prosesi "azadlıqdan məhrumetmə cəzasının tətbiqini nəzərdə tutan formal əsaslara dayanmayan niyyətlər güdməklə, pis niyyət və özbaşınalıq nümayiş etdirmişdir".[61]

*Tofiq Yaqublunun Xuliqanlıq Maddəsi Üzrə Məhkəmə İşi*

Bu iş üzrə ittihamlar 2020-ci il martın 22-də baş vermiş mübahisədən irəli gəlir. T. Yaqublu ittihamlarla bağlı hökumət rəsmiləri və digər şahidlərin söylədiyi faktları mübahisələndirib. Tərəflərin mövqeyi aşağıdakı kimi təsvir edilmişdir.

T. Yaqublunun sözlərinə görə, o, günort saat 15:00 radələrində həyat yoldaşı Maya Yaqublu və Maya xanımın qardaşı oğlu İsa İsmayılovla Bakının Nizami rayonundakı bazara gedib.[62] Həyat yoldaşı və İsa İsmayılov bazara girərkən o, avtomobilini yolun sağ tərəfində saxlayıb.[63] Bu zaman digər bir avtomobil onun avtomobilinin sol tərəfinə çırpılıb, lakin o, avtomobildə qalaraq polisin gəlməsini gözləyib.[64] Digər avtomobildəki kişi və qadın düşərək T. Yaqubluya yaxınlaşıb və ondan avtomobildən düşməsini tələb etsələr

---

[55] Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №. 31709/13, 5 noyabr 2015-ci il, para. 62.
[56] Freedom House, *Dünyada Azadlıq 2017: Azərbaycan, 2016 və 2017-cı illər üzrə inkişaf tendensiyaları,* https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2017.
[57] Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №. 69686/12, 15 iyul 2021-ci il.
[58] HRW, *Azərbaycan: Müxalifət Lideri Həbs Edildi*, 25 mart 2020-ci il, https://www.hrw.org/news/2020/03/25/azerbaijan-opposition-leader-arrested.
[59] Human Rights Watch, *Azərbaycan: Dinc Mitinqlər Zorakılıqla Dağıdıldı*, 22 oktyabr 2019-cu il, https://www.hrw.org/news/2019/10/22/azerbaijan-peaceful-rallies-dispersed-violently.
[60] HRW, *Azərbaycan: Müxalifət Lideri Həbs Edildi*, 25 mart 2020-ci il, https://www.hrw.org/news/2020/03/25/azerbaijan-opposition-leader-arrested.
[61] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №. 69686/12, 15 iyul 2021-ci il.
[62] Bakı Şəhəri Nizami Rayon Məhkəməsi, Hökm, 3 sentyabr 2020-ci il (bundan sonra Hökm).
[63] *Id*.
[64] *Id*.

də, o, bundan imtina edib.[65] Həmin vaxt, o, polisə zəng edib.[66] Qısa müddətdən sonra həyat yoldaşı və onun qardaşı oğlu, daha sonra isə polis hadisə yerinə gəlib.[67]

Rəsmi qurumların və zərərçəkmiş olduğu iddia edilən şəxslərin bildirdiyinə görə, T. Yaqublu avtomobilini bazarın kənarında saxlayıb və yol hərəkəti qaydalarını pozaraq yolun sağ tərəfindən sol tərəfinə gedib.[68] Nəticədə o, eyni istiqamətdə hərəkətdə olan Elxan Cəbrayılovun avtomobilinə çırpılıb.[69] Sərnişin oturacağında E. Cəbrayılovun həyat yoldaşı Cəvahir Cəbrayılova olub.[70] Toqquşmadan sonra T. Yaqublu avtomobilindən enərək E. Cəbrayılovun üstünə qışqırmağa başlayıb, daha sonra E. Cəbrayılovun başına yumruqla  və vintaçanla sağ çiyninə xəsarət yetirib.[71] Bu zaman Cəvahir Cəbrayılova polisə zəng edib.[72] C. Cəbrayılova T. Yaqublunun qarşısını almaq üçün avtomobildən düşən zaman, T. Yaqublu ona şifahi hücum edib və avtomobilin qapısını ona doğru vurmaq üçün açıb.[73] Daha sonra hadisə yerinə Tofiq Yaqublunun ailə üzvləri və polis gəlib.[74] Qarşıdurma, avtomobil qəzasından sonra iyirmi və iyirmi beş dəqiqə aralığında davam edib.[75] Aşağıda təsvir olunduğu kimi, maddi sübutlar və şahid ifadələrindəki uyğunsuzluq hadisələrin bu cür təsvirini şübhə altına alır.

Tofiq Yaqublu 22 mart 2020-ci ildə Cinayət Məcəlləsinin 221.3-cü maddəsi ilə şübhəli şəxs qismində saxlanılıb və ertəsi gün məhkəmə ona qarşı üç aylıq həbs-qətimkan tədbiri seçib.[76] Cinayət Məcəlləsinin 221-ci maddəsinə əsasən xuliqanlıq dedikdə "ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər" nəzərdə tutulur. Xuliqanlığa görə bir ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutula bilər. Maddənin 3-cü yarımbənd silahdan istifadə edildikdə daha ağırlaşdırıcı cəza kimi üç ildən yeddi ilədək həbs cəzası nəzərdə tutur. İyul ayının 13-də Tofiq Yaqubluya qarşı 221.3 maddə ilə ittiham irəli sürülüb.[77]

---

[65] *Id*.
[66] *Id*.
[67] *Id*. Hökmdə Tofiq Yaqublunun polisin birinci gəldiyini bildirdiyi xatırlansa da, Maya Yaqublunun özü və qardaşı oğlu İsmayılovun birinci gəldiyini deməsi, məhkəmədə T. Yaqublunun da eyni cür ifadə verdiyi qeyd edilir.
[68] *Id*.
[69] *Id*.
[70] *Id*.
[71] *Id*.
[72] *Id*.
[73] *Id*.
[74] *Id*.
[75] *Id*.
[76] *Id*.
[77] İttiham aktı, 5 iyul 2020-ci il.

Bir müddət sonra, avqustun 5-də Tofiq Yaqublunun məhkəməsi başlanıb və o, dinləmələr zamanı şüşə kabində saxlanıb.[78] Məhkəmə COVID-19 məhdudiyyətlərinə görə zalda maksimum 10 nəfərin (tərəflər və məhkəmə üzvləri) olmasına icazə verərək, məhkəməni bu səbəblərdən ictimaiyyət üçün qapalı keçirib.[79] Müdafiə tərəfinin T. Yaqublunun şüşə kabindən çıxarılması və məhkəmə prosesinin açıq keçirilməsi ilə bağlı dəfələrlə qaldırdığı vəsatətlər hakim tərəfindən rədd edilib.[80]

Avqustun ayının 5-də keçirilən ilk məhkəmə iclasında müdafiə tərəfi Cəbrayılovların avtomobil qəzası və qarşıdurmanın baş verdiyini iddia etdiyi vaxt Elxan Cəbrayılovun avtomobilinin hələ də bazarın yaxınlığında dayandığını və avtomobilin həmin zaman Tofiq Yaqublunun saxlandığı yerə doğru yalnız iddia edilən hadisədən 10 dəqiqədən çox vaxt keçdikdən sonra hərəkət etməyə başladığını göstərən (bazardakı mağaza satıcısından əldə etdiyi) videogörüntüləri sübut kimi təqdim etməsi ilə bağlı vəsatət qaldırıb (Cəbrayılovlar ailəsi hadisənin saat 15:15 radələrində baş verdiyini, istintaq materiallarına görə C. Cəbrayılovanın saat 15.21-də polisə zəng vurduğu göstərilsə də, videoda saat 15:25-də E. Cəbrayılovun avtomobilinin dayanacaqdan çıxmağa başladığı əks olunur. Videoda avtomobilin markası aydındır və E. Cəbrayılovun avtomobilinə uyğun gəlir, lakin dövlət nömrə nişanı aydın deyil).[81] Müdafiə tərəfi daha sonra məhkəmədən Cəbrayılovlar ailəsinin mobil telefon danışıqlarının çıxarışlarını almaq barədə vəsatət qaldıraraq soruşdu: “İnsan 4 dəqiqə əvvəldən kiminsə onun avtomobilinə vuracağını necə bilə bilər?”[82] Hakim vəsatətlərə sonrakı mərhələdə baxıla biləcəyini deyərək onları təmin etmədi[83] (hakim sonradan telefon danışıqları ilə bağlı vəsatəti rədd etdi).[84]

Daha sonra müdafiə tərəfi əlavə şahidlərin, o cümlədən hadisə yerində şahid qismində dindirilən şəxsin və Tofiq Yaqublunun həyat yoldaşı Maya Yaqublu ilə qardaşı oğlu Isa Ismayılovun çağırılması barədə vəsatət verdi. Müdafiə tərəfi daha sonra məhkəmə-tibbi ekspertizasının rəyində vintaçanın E. Cəbrayılovun paltarında deşiklər açdığını göstərməsinə baxmayaraq, onun bədənində müvafiq xəsarətlərin olmaması səbəbini müəyyən etmək üçün ekspertiza tələb etdi.[85] Məhkəmə bu vəsatətləri sübutların araşdırılması zamanı baxıla biləcəyini əsas gətirərək təmin etmədi.[86] Hakim əlavə olaraq bildirdi ki, indiki mərhələdə o, T. Yaqublu və vəkillərinin sübutların təqdim edilməsi ilə bağlı

---

[78] Bax, Monitorinq Qeydləri, 5 avqust 2020-ci il; Monitorinq Qeydləri, 7 avqust 2020-ci il.
[79] *Id*.
[80] *Id*.
[81] Monitorinq Qeydləri, 5 avqust 2020-ci il.
[82] *Id*.
[83] *Id*.
[84] Monitorinq Qeydləri, 1 sentyabr 2020-ci il.
[85] Monitorinq Qeydləri, 5 avqust 2020-ci il.
[86] *Id*.

bütün əlavə vəsatətlərini rədd edə bilər. Dövlət ittihamçısı daha sonra ittiham aktını oxudu,Tofiq Yaqublu çıxışında özünü təqsirli bilmədiyini dedi.[87]

2020-ci il avqustun 7-də keçirilən prosesdə zərərçəkmiş kimi tanınan Elxan Cəbrayılov ifadə verib.[88] O, hadisə baş verən gün həyat yoldaşı ilə bazarda olduğunu və tıxacda qaldığını bildirib.[89] Onun sözlərinə görə, Tofiq Yaqublunun avtomobilinin yanından ötərkən, Tofiq Yaqublu öz avtomobili ilə onun avtomobilinə vurub.[90] Bu zaman, E. Cəbrayılov avtomobildən düşüb və T. Yaqublu ona yumruqla və vintaçanla sağ çiyninə dörd dəfə zərbə endirib, qarşıdurmanın sonunda vintaçan kənara atılıb.[91] Cəvahir Cəbrayılova isə bu ərəfədə polisə zəng edib.[92] E. Cəbrayılovun sözlərinə görə, polis hadisədən beş-on dəqiqə sonra gəlib.[93] O, məhkəmə iclasında dindirilmə zamanı verdiyi ifadəsində ibtidai istintaq zamanı verdiyi ifadəyə uyğun gəlməyən bir neçə təfərrüat qeyd edib. Digər məsələlərlə yanaşı, ilkin ifadəsində, o, T. Yaqublunun onu dəmir parçası ilə vurduğunu desə də, məhkəmədə həmin əşyanın vintaçan olduğunu bildirib.[94] Bundan əlavə, onun məhkəmədə verdiyi ifadənin özündə uyğunsuzluqlar və boşluqlar olub. Məsələn, ittiham tərəfinin dindirməsi zamanı E. Cəbrayılov, həyat yoldaşının avtomobilin qapısı ilə vurulmasını görmədiyini, lakin çarpaz dindirmə zamanı hadisəyə həqiqətən şahidi olduğunu deyib.[95] O, həmçinin, iddia edilən qarşıdurma nəticəsində bədənində deyil, sadəcə paltarında izlərin olmasının səbəbini izah edə bilməyib və T. Yaqublunun sözügedən gün nə geyindiyini səhv deyib.[96] Hakim toqquşmanın necə baş verdiyi, E. Cəbrayılovun xəsarətlərinin xarakteri və T. Yaqublunun Cəvahir Cəbrayılovaya iddia edilən hücumu kimi mövzular da daxil olmaqla, müdafiə tərəfinin suallarını dəfələrlə kəsib.[97]

Cəvahir Cəbrayılova isə avqustun ayının 7-də ifadə verib[98] (məhkəmə Elxan Cəbrayılovun ifadəsi zamanı C. Cəbrayılovanın məhkəmə zalından çıxarılması ilə bağlı müdafiə tərəfinin vəsatətini təmin etməyib, bu səbəbdən o, həyat yoldaşının hadisələrlə bağlı versiyasını dinlədikdən dərhal sonra ifadə verib.).[99] C. Cəbrayılova öz ifadəsində Tofiq Yaqublunun avtomobilinin onların avtomobilinə çırpıldığını, T. Yaqublunun çıxıb hər ikisini "nalayiq" sözlərlə təhqir etdiyini və T. Yaqublunun həyata yoldaşı E. Cəbrayılovu

---

[87] *Id*.
[88] Monitorinq Qeydləri, 5 avqust 2020-ci il.
[89] *Id*.
[90] *Id*.
[91] *Id*.
[92] *Id*.
[93] *Id*.
[94] *Id*.
[95] *Id*.
[96] *Id*.
[97] *Id*.
[98] *Id*.
[99] *Id*.

vurduğunu bildirib.[100] Daha sonra C.Cəbrayılova onları ayırmaq üçün avtomobildən endiyini və polisə zəng etdiyini deyib.[101] O, avtomobillərin toqquşmasına səbəb olan hadisələr silsiləsi ilə bağlı müdafiə tərəfinin bəzi suallarına cavab verməkdən imtina edib.[102]

Avqust ayının 12 və 14-də ibtidai istintaq zamanı ifadə verən iki şahid T. Yaqublunun E. Cəbrayılovu döydüyünü gördüklərini bildiriblər. Lakin, avqustun 12-də ifadə verən birinci şahid Elşən Mirzoyev sonda polisin ona verdiyi müxtəlif sənədləri imzaladığını və onların məzmunundan xəbərsiz olduğunu bildirib.[103] İkinci şahid Arzu Babayeva avqustun 14-dəki ifadəsində bildirib ki, o, avtomobilin toqquşmasını eşidib, lakin daha sonra T. Yaqublunun E. Cəbrayılova hücum etdiyini və T. Yaqublunun Cəvahir Cəbrayılovanı avtomobilin qapısı ilə vurduğunu gördüyünü deyib.[104] Müdafiə tərəfi bu iddianı mübahisələndirərək bildirmişdir ki, Babayeva ilkin ifadəsində avtomobillərin toqquşmasını həqiqətən gördüyünü iddia edib.[105] Arzu Babayevanın ifadəsi zamanı digər uyğunsuzluqlar da üzə çıxıb, belə ki o, əvvəlcə, məsələn, bazara yalnız oğlu ilə getdiyini bildirsə də, sonradan bir dostunun da orada olduğunu deyib.[106]

Daha sonra hadisə yerinə gələn üç polis əməkdaşı ifadə verib. Birinci İlqar Mehdiyev, avqustun 14-də verdiyi ifadədə polisin çağırılmasından 10 dəqiqə sonra hadisə yerinə gəldiyini və E. Cəbrayılovun bədənində xəsarətlər olduğunu deyib.[107] O, hadisənin təfərrüatlarını xatırlamaqda çətinlik çəkib.[108] İkinci polis əməkdaşı Elxan Cəfərov, avqustun 19-da verdiyi ifadəsində bildirib ki, o gələndə T. Yaqublu çox "aqressiv" olub, söyüş söyüb və E. Cəbrayılovun üzərində də "kəsik" olduğunu görüb (bu, ittiham tərəfinin təqdim etdiyi məhkəmə-tibbi ekspertiza rəyi ilə ziddiyyət təşkil edib, belə ki, orada E. Cəbrayılovda yalnız qançırlar olduğu, qanaxma olmadığı qeyd olunub).[109] Çarpaz sorğu zamanı E. Cəfərov bildirdi ki, o, avtomobillərin vəziyyətini xatırlamır və Azərbaycan dilində vintaçan sözünü bilmir, bununla da o, *eyni sözü* işlətdiyi məhkəməyəqədərki ifadəsi ilə ziddiyyət yaşayıb.[110] E. Cəfərov daha sonra deyib ki, o, hadisə yerinə gələndə iddia edilən zərərçəkmişlər oturmuş halda olublar, lakin bu, onların ayaqüstə olduqları barədə verdiyi məhkəməyəqədərki ifadəsi ilə ziddiyət təşkil edib.[111] Yuxarıda göstərilən və digər ziddiyyətli ifadələrə əsaslanaraq, müdafiə tərəfi E. Cəfərovun ifadəsinin başqa biri

---

[100] *Id.*
[101] *Id.*
[102] *Id.*
[103] Monitorinq Qeydləri, 12 avqust 2020-ci il.
[104] Monitorinq Qeydləri, 14 avqust 2020-ci il.
[105] *Id.*
[106] *Id.*
[107] *Id.*
[108] *Id.*
[109] Monitorinq Qeydləri, 19 avqust 2020-ci il.
[110] *Id.*
[111] *Id.*

tərəfindən saxtalaşdırılıb yazıla biləcəyi ilə bağlı narazılığını bildirib və E. Cəfərovun faktiki olaraq hadisə yerində olub-olmadığını müəyyən etmək üçün telefonunun yerləşmə yeri məlumatlarının əldə edilməsi barədə vəsatət qaldırıb.[112] Bu vəsatəti hakim izahat vermədən rədd edib.[113]

Son olaraq, Malik Manafov avqustun 21-də verdiyi ifadəsində qəza baş verəndən sonra gəldiyini deyib.[114] Müdafiə tərəfi iddia edib ki, T. Yaqublu hadisə baş verməzdən əvvəl M. Manafovu hadisə yerində görüb və bu səbəbdən, telefonunun yerləşmə yeri məlumatını əldə etmək üçün onun mobil telefon yazılarının məhkəməyə təqdim edilməsi barədə vəsatət qaldırıb.[115] Hakim, Malik Manafovu telefon nömrəsini verməyə məcbur edə bilməyəcəyini əsas gətirərək vəsatəti rədd edib.[116] Bu ifadədən sonra Tofiq Yaqublu xəstələndi və proses təxirə salındı, müdafiə tərəfi təcili yardım çağırılmasını tələb etsə də, məhkəmə rədd cavabı verdi.[117]

25 avqust tarixinə təxirə salınan məhkəmə prosesi zamanı hadisə yerindən kiminsə çəkdiyi fotoşəkillə müəyyən edilən 15 yaşlı İsmayıl Mirzəyev ifadəsində T. Yaqublunun E. Cəbrayılovu vurmasının şahidi olduğunu, həmçinin T. Yaqublunun hadisə yerində öz telefonu ilə şəkil çəkdiyini gördüyünü deyib.[118] O, polisə verdiyi əvvəlki ifadəsində yer alan bir çox detalları xatırlaya bilməyib və dəfələrlə özü ilə ziddiyyətə düşüb.[119] Hadisələri düzgün xatırlaya bilməməsi, ziddiyyətli fikirləri və yaşının az olması ilə əlaqədar, müdafiə tərəfinin İ. Mirzəyevin məhkəmə-psixiatriya ekspertizasından keçirilməsi barədə vəsatəti hakim tərəfindən rədd edilib.[120] Müdafiə tərəfi, İ. Mirzəyevin fotonu hadisə baş verməmişdən əvvəl çəkildiyini deməsinə baxmayaraq, fotoda polis əməkdaşının əks olunduğunu deyib.[121]

Şahidlər siyahısında və istintaq sənədlərində dindirilməsi nəzərdə tutulan şəxsin "Cavanşir Novruzov" kimi göstərilməsinə baxmayaraq, ittiham tərəfi daha sonra şahid Novruz Novruzovu çağırıb.[122] Müdafiə tərəfi Novruz adlı şəxsin eyni adam olmadığını əsas gətirib və hakim iclası təxirə salıb.[123] Avqustun 26-da məhkəmə Novruz Novruzovun dindirilməsinə icazə verib və o, ifadəsində T. Yaqublu ilə E. Cəbrayılov arasında qarşıdurmanın şahidi olduğunu bildirib.[124] Müdafiə tərəfi iş materiallarına əsasən onun

---

[112] *Id*.
[113] *Id*.
[114] Monitorinq Qeydləri, 21 avqust 2020-ci il.
[115] *Id*.
[116] *Id*.
[117] *Id*.
[118] Monitorinq Qeydləri, 25 avqust 2020-ci il.
[119] *Id*.
[120] *Id*.
[121] *Id*.
[122] *Id*.
[123] *Id*.
[124] Monitorinq Qeydləri, 26 avqust 2020-ci il.

şəxsiyyətinin hadisə yerindən çəkilmiş fotoşəkillə müəyyən etdiyini desə də, şahid sözügedən şəkildə olmadığını bildirib.[125] Bundan əlavə, polisə verilən yazılı ifadənin latın əlifbası ilə Novruzov tərəfindən imzalanmasına və ifadənin onun tərəfindən yazıldığını qeyd etməsinə baxmayaraq, o ifadəsində latın əlifbasını oxuyub-yaza bilmədiyini bildirib.[126] Müdafiə tərəfinin dindirməsi zamanı o, Azərbaycan dilində vintaçan sözünü tanımasa da, polisə verdiyi ifadədə həmin sözdən istifadə edib.[127] İfadəsinin sonunda o, heç bir fiziki qarşıdurmanı müşahidə etmədiyini deyib, bu zaman müdafiə tərəfi dindirilən şəxsin iş materiallarında göstərilən "Cavanşir Novruzov" olmadığını təkrarlayıb.[128] Daha sonra, hakim xəstəliyə görə məhkəməyə gələ bilməyəcəyini iddia edən şahiddən ifadə aldığını elan edib. Müdafiə tərəfi şahidin xəstəliyini təsdiq edən sübutları istədikdə və ya şahidin daha sonrakı tarixdə məhkəməyə çağırılmasını tələb etdikdə, hakim rədd cavabı verib.[129]

28 avqust tarixində ittiham tərəfinin şahidi Əli Ağayev T. Yaqublu ilə E. Cəbrayılov arasında mübahisəni gördüyünü desə də, müdafiə tərəfinin çarpaz dindirməsi zamanı o, əsas detalları xatırlaya bilmədiyini və mübahisəni sadəcə eşitdiyini, lakin görmədiyini qeyd edib.[130] Bu ifadə onun istintaq zamanı verdiyi ifadə ilə ziddiyyət təşkil edib, belə ki, o, əvvəlki ifadəsində avtomobillərin toqquşmasının şahidi olduğunu və T. Yaqublunun E. Cəbrayılovu vurduğunu gördüyünü bildirib.[131] Müdafiə tərəfi bu ziddiyyətləri mübahisələndirmək istəyəndə, hakim bir sıra sualların verilməsinə imka verməyib[132] Müdafiə tərəfi hakimin ittiham tərəfinə tərəfli münasibət bəslədiyini iddia edərək, çarpaz dindirmə ilə bağlı məhdudiyyətlərə rəsmi etirazını bildirib.[133] Hakim izahat vermədən etirazı rədd edib.[134]

Məhkəmə T. Yaqublunu ifadə verməyə çağırsa da, o, əlavə sübutların təqdim edilməsi ilə bağlı vəsatətləri təmin edilməyənədək bunu etməyəcəyini söyləyib.[135] Məhkəmə müdafiə tərəfinin hadisənin yuxarıda qeyd olunan videogörüntülərini təqdim etmək və əlavə şahidlər çağırmaq məqsədilə Maya Yaqublu və Tofiq Yaqublunun mobil telefonlarına ekspert baxışı keçirilməsi ilə bağlı vəsatətlərini təmin edib (müdafiə tərəfinin iddiasına əsasən həm cənab, həm də xanım Yaqublu hadisə yerindən foto və video çəkiblər, lakin telefonlar polis tərəfindən alındıqda, həmin görüntür təhrif edilib və bəraətverici sübutlar

---

[125] *Id.*
[126] *Id.*
[127] *Id.*
[128] *Id.*
[129] *Id.*
[130] Monitorinq Qeydləri, 28 avqust 2020-ci il.
[131] *Id.*
[132] *Id.*
[133] *Id.*
[134] *Id.*
[135] *Id.*

silinib).[136] Hakim daha sonra müdafiə tərəfinin zərərçəkmişlərin mobil telefonlarının qeyd yazılarını almaqla bağlı vəsatətini heç bir izahat vermədən rədd edib.[137]

Daha sonra müdafiə tərəfinin vəsatəti əsasında Mirməhəmməd Mahmudzadə dindirilib. O ifadəsində bildirib ki, hadisə baş verən gün bazarda olub və polislər yaxınlaşaraq onu hadisə yerinə gətiriblər.[138] M. Mahmudzadənin sözlərinə görə, polis ona təxminən bir saat əvvəl vintaçanın istifadə olunduğu mübahisə olduğunu deyib.[139] O, daha sonra ifadəsində bildirib ki, polis ona heç nə görmədiyi halda, avtomobillərin toqquşmasının şahidi olduğunu iddia edən ifadəyə imza atmağı tapşırıb.[140]

Sentyabrın 1-də keçirilən növbəti məhkəmə iclasında müdafiə tərəfi ittihamların qondarma və icraatın qanunsuz olduğunu əsas gətirərək işdən Bakı Apellyasiya Məhkəməsinə şikayət göndərdiyini bildirib.[141] Müdafiə tərəfi əlavə edib ki, digər məsələlərlə yanaşı, şikayətdə işdə maraqlı olan müşahidəçilərin əsassız olaraq məhkəmə zalına buraxılmaması, sübutların təqdim edilməsi ilə bağlı müdafiə tərəfinin vəsatətlərinin əsassız olaraq rədd edilməsi, T. Yaqublunun Avropa İnsan Hüquqları Məhkəməsi presedentinə zidd şəkildə bütün məhkəmə prosesi boyu şüşə kabində saxlanması və ittiham tərəfinin istintaq zamanı dindirilən faktiki şəxsdən fərqli şahidi məhkəməyə çağırması (Cavanşir Novruzov) kimi hallar da göstərilib.[142] Müdafiə tərəfi məhkəmə icraatının apellyasiya şikayət üzrə qərar qəbul edənə qədər dayandırılmasını tələb edib.[143] Məhkəmə bu tələbi rədd edib.[144]

Müdafiə tərəfinin daha sonra iki son şahidi ifadə verib. Şakir Ağayev ifadəsində bildirib ki, hadisə baş verəndən sonra o hadisə yerinə gəlib və polis ona T. Yaqublunun avtomobilinin E. Cəbrayılovun avtomobilinə çırpıldığını deyib.[145] Ş. Ağayevin sözlərinə görə, o, yalnız avtomobillərə dəyən ziyanı təsdiq edən ifadəni imzalayıb.[146] Müdafiə tərəfi etiraz edərək bildirib ki, ittiham tərəfi Ş. Ağayevin toqquşmanın şahidi olduğunu bildirən yazılı ifadəsini təqdim edib.[147] Daha sonra müdafiə tərəfi istintaqın aparılmasına kömək edən polis müstəntiqinin şahid qismində çağırılması və həmçinin "əsl" Cavanşir

---

[136] *Id.*
[137] *Id.*
[138] *Id.*
[139] *Id.*
[140] *Id.*
[141] Monitorinq Qeydləri, 1 sentyabr 2020-ci il.
[142] *Id.*
[143] *Id.*
[144] *Id.*
[145] *Id.*
[146] *Id.*
[147] *Id.*

Novruzovun dindirilməyə çağırılması barədə vəsatət qaldırıb.[148] Hakim izahat vermədən bu vəsatətləri rədd edib.[149]

Daha sonra T. Yaqublunun həyat yoldaşı Maya Yaqublu hadisənin baş verdiyi günlə bağlı ifadə verib. O, bildirib ki, qardaşı oğlu ilə bazarda olarkən həyat yoldaşı onlara zəng edib və avtomobilin vurulduğunu və avtomobilə qayıtmalarını bildirib. Qayıdan kimi, o, C. Cəbrayılovanın onların avtomobilinə yaxınlaşdığını və qapıları açmağa cəhd etdiyini görüb.[150] M. Yaqublu ona söyüş söyən Cəvahir Cəbrayılovanı avtomobildən zorla uzaqlaşdırıb tez öz avtomobillərinə oturduğunu və T. Yaqublu ilə polisin gəlməsini gözlədiklərini deyib.[151] Gələn polislərdən biri onların avtomobilinə oturub və birlikdə polis bölməsinə gəliblər, belə ki, orada polis onun razılığı olmadan telefonunu çantasından götürüb.[152] Maya Yaqublunun ifadəsi zamanı, onun hadisə yerinə çatma vaxtı ilə, E. Cəbrayılovun M. Yaqublunun polisdən sonra gəldiyini bildirən iddiası üzərinə mübahisə yaranıb.[153]

Daha sonra müdafiə tərəfi bir daha cənab və xanım Yaqublunun telefonlarının ekspertlər tərəfindən yoxlanılmasını tələb edib və bildirib ki, T. Yaqublu tutulduqdan sonra telefonlar onlardan götürülərkən polis onlara müdaxilə edib və bəraətverici sübutlar, məsələn, hadisə yerindən olan videoları silib.[154] Hakim əvvəlki iclasda təsdiqləməsinə baxmayaraq, izahat vermədən bu vəsatəti təmin etməyib və prosesin yekunlaşdığını elan edib.[155] İttiham tərəfi yekun sözlə çıxış edərək T. Yaqubluya 4 il 6 ay həbs cəzası istəyib.[156] Məhkəmə müdafiə tərəfə yekun çıxışla bağlı söz verdikdə, vəkil, müdafiə tərəfinin “bu qanunsuzluğa etiraz etdiyini” və prosesi “absurd” hesab etdiyini bildirib.[157] Bu zamanı, T. Yaqublu çıxış etmə istəyini irəli sürsə də, məhkəmə onun bundan öncə çıxış etmə hüququndan imtina etdiyini əsas gətirərək rədd edib.[158]

Sentyabrın 2-də keçirilən yekun iclasda Tofiq Yaqubluya son söz verilib. O, ifadəsi zamanı ittihamları və məhkəmə prosesini “saxta” və “böhtan” adlandırıb[159] və bildirib ki, ötən il hökumət rəsmiləri onu siyasi fəaliyyətinə və prezidenti tənqid etməyə davam edəcəyi təqdirdə həbs oluna biləcəyi ilə hədələyiblər.[160] T. Yaqublunun sözlərinə görə, əgər o, iddia edildiyi kimi E. Cəbrayılova hücum etsəydi, orada müşahidə kameraları və

---

148 *Id.*
149 *Id.*
150 *Id.*
151 *Id.*
152 *Id.*
153 *Id.*
154 *Id.*
155 *Id.*
156 *Id.*
157 *Id.*
158 *Id.*
159 Monitorinq Qeydləri, 2 sentyabr 2020-ci il.
160 *Id.*

ya digər videogörüntülər olardı. O, daha sonra ittiham tərəfinin sübutlarındakı uyğunsuzluqları- E. Cəbrayılovun pencəyinin altındakı xəsarətləri hadisə yerində heç kimə göstərmədiyini desə də, polisin gəldiyi zaman xəsarətləri gördükləri barədə verdiyi ifadələrlə ziddiyyət təşkil etdiyi; E. Cəbrayılovun pencəyində vintaçanla vurulması nəticəsində yarandığı iddia edilən deşiklər olduğu halda, buna müvafiq ağır xəsarətlərin olmadığı; prokurorluq orqanlarının T. Yaqublunun E. Cəbrayılova iyirmi dəqiqədən çox hücum etməsi və vintaçanda qan damcılarının olması barədə iddiasının (prokurorluq tərəfindən təqdim edilmiş istintaq materialına əsasən) protokollaşdırılan minimal xəsarətlərlə üst-üstə düşmədiyi kimi məsələləri- qaldırıb.[161] Tofiq Yaqublu prokurorluq və məhkəmənin davranışlarını tənqid edərkən, hakim ona xəbərdarlıqla yalnız işin mahiyyəti barədə danışa biləcəyini bildirib və sonda onun sözünü kəsərək iclası yekunlaşdırıb.[162]

Məhkəmənin 3 sentyabrda çıxardığı hökmdə Tofiq Yaqublu Cinayət Məcəlləsinin 221.3-cü maddəsi üzrə xuliqanlıqda təqsirli bilinərək, 4 il 3 ay müddətinə azadlıqdan məhrum edilib (ibtidai istintaq zamanı həbs müddəti cəzaçəkmə müddətinə daxil edilməklə).[163] Məhkəmə T. Yaqublunun ictimai asayişi pozaraq E. Cəbrayılov və həyat yoldaşı C. Cəbrayılovaya fiziki hücum etməsini "cəmiyyətə açıq-aşkar hörmətsizlik" nümayişi kimi qələmə vermiş və onun vintaçandan istifadə etməsini ağırlaşdırıcı hal kimi nəzərə almışdır (yuxarıda qeyd edildiyi kimi, silahdan istifadə ağırlaşdırıcı hal kimi nəzərə alına bilər).[164]

Hökm, ittiham tərəfinin dəlilləri və sübutlarını birmənalı şəkildə qəbul edərək, qeyd edir ki, Tofiq Yaqublunun təqsiri "zərərçəkmişlərin və şahidlərin ifadələri və iş üzrə toplanmış digər məlumatlarla sübuta yetirilib" və məhkəmə "təqsirli barədə mənbələrin etibarlılığına və qanuniliyinə şübhə etmir".[165] Məhkəmə ittiham tərəfinin şahidlərinin ifadələrində yuxarıda qeyd olunan uyğunsuzluqları nəzərə almayıb. Qərarda ibtidai istintaq zamanı ifadə verən, "Cavanşir Novruzov" adlı şəxs olmadığını bildirən və hətta məhkəmədə hadisənin şahidi olmadığını etiraf edən Novruzovla bağlı isə deyilir: " Adı Novruz olsa da, hamı onu Cavanşir kimi tanıyıb və bu adla çağırıb, ona görə də müstəntiqlər tərəfindən sorğu-sual edilləndə o, özünü Cavanşir kimi təqdim edib. Adı çəkilən Novruz Novruzov ibtidai istintaq və məhkəmə iclasında iş üçün əhəmiyyət kəsb edən halları bilən şəxs, şahid qismində dindirilib və bu ifadələr arasında heç bir ziddiyyət olmayıb".[166] Hadisə ilə bağlı ifadəsində uyğunsuzluqlar olan və son nəticədə heç nə görmədiyini bildirən Əli Ağayevlə bağlı isə qərarda deyilir: "Həmin hadisədən xeyli vaxt keçdiyinə görə şahid

---

[161] *Id.*
[162] *Id.*
[163] Hökm.
[164] *Id.*
[165] *Id.*
[166] *Id.*

verdiyi ifadəni tam xatırlamasa da, verilmiş suallarla işin hallarına, verdiyi ifadəsinə ümumilikdə aydınlıq gətirilmişdir”.[167]

Hökm, həmçinin, Tofiq Yaqublunun təqsirini təsdiq edən- E. Cəbrayılovun çiynində “sağlamlığına daha az ağır zərər vuran” “sıyrıqlar”ın olduğu məhkəmə-tibbi ekspertizası rəyi (prokurorluğun təqdim etdiyi müxtəlif instintaq materiallarında vintaçanın Cəbrayılovun paltarını deşməsi nəticəsində bədənində “iki deşilmiş yara” olması, qan içində olduğu və vintaçanın üstündə qan damcılarının olduğunu göstərən məlumatların olmasına baxmayaraq), Cəbrayılovun aldığı xəsarətlərlə bağlı məhkəmə-tibbi ekspertizasının 22 aprel 2020-ci il tarixli rəyi (hadisədən bir ay sonra verilib) və vintaçanda barmaq izinin olmadığı barədə digər məhkəmə-tibbi ekspertiza rəyi[168]- ekspertiza rəylərinə əsaslanır. Hadisə zamanı iştirakçıların heç birinin əlcək taxmadığını və barmaq izlərinin aşkarlanmadığını nəzərə aldıqda, vintaçanın iki şəxs arasındakı qarşıdurmanın hansı formada predmeti ola biləcəyinə dair heç bir qiymətləndirmə mövcud deyil.

Yuxarıda qeyd olunduğu kimi, müdafiə tərəfi bazarda mağaza sahibindən əldə etdiyi və E. Cəbrayılovun avtomobilinin təsvirinə uyğun gələn bir avtomobilin (yuxarıda deyildiyi kimi nömrə aydın olmayıb) saxladığı yerdən çıxdığını və ardınca yol boyu hərəkət etdiyini göstərən videogörüntü (Cəbrayılov iddia olunan toqquşma və qarşıdurmanın baş verməsindən sonra polisə 15:21-də zəng etməsinə baxmayaraq, videoda saat 15:25-i göstərir) təqdim edib.[169] Hökm bu videogörüntüləri rədd edərək videodakı avtomobilin Elxan Cəbrayılova məxsus olmadığını, digər məsələlərlə yanaşı, müddətlərin ittiham tərəfinin açıqlaması ilə ziddiyyət təşkil etdiyi; “müşahidə kamerası, videonun mənbəyi və həqiqiliyi, çəkildiyi ünvan, küçənin adı və videonun əhatə etdiyi əraziyə dair heç bir sübut olmaması”; “zərərçəkmiş şəxsin bu faktı inkar edib videodakı avtomobilin ona məxsus olmadığını deməsi” və “araşdırma zamanı cinayət anından heç bir görüntü qeydə alınmadığının müəyyən edilməsi” kimi səbəblərlə izah edib (T. Yaqublu bazarda adətən təhlükəsizlik kameralarının olduğunu bildirsə də, polis bunu təkzib edib).[170]

Bundan əlavə, qərarda Tofiq Yaqublunun hadisə yerində telefonu ilə şəkillər çəkməsi ilə bağlı iddialarına istinad edilir və qeyd edilir: “məhkəmə iclası zamanı mobil telefona baxış keçirilmiş və işlə bağlı əhəmiyyət kəsb edəcək məlumat və ya görüntü aşkar edilməmişdir”.[171] T. Yaqublunun telefonuna polis tərəfindən müdaxilə edilməsi ilə bağlı iddiasından isə söz açılmır. Bununla yanaşı, təqsirləndirilən şəxsin “yaxın ailə üzvü” olduğuna görə, Maya Yaqublunun Tofiq Yaqublunun ifadəsindəki faktlarla uyğunluq təşkil edən ifadəsi “məhkəmə tərəfindən nəzərə alınmır, çünki bu, təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə nail olmaq məqsədilə, onun xeyrinə verilən bir

---

[167] *Id.*
[168] *Id.*
[169] *Id.*
[170] *Id.*
[171] *Id.*

ifadə kimi qəbul edilir."[172] Bununla belə, hökmdə, cənab və xanım Cəbrayılovlar arasındakı ər-arvad münasibətlərinin onların ifadələrinin etibarlılığına təsir edə biləcəyi ilə bağlı heç bir narahatlıq ifadə edilmir. Müdafiə tərəfinin şahidləri Şakir Ağayev və M. Mahmudzadəyə gəldikdə, hökmdə polisin onların məhkəməyə qədərki ifadələrini saxtalaşdırdığını dedikləri ifadələrinə toxunulmur.

Tofiq Yaqublu çıxarılmış hökmdən apellyasiya şikayəti verdi və həbs olunmasına etiraz olaraq aclıq aksiyasına başladı.[173] O, sentyabrın ayının 18-də səhhətinin pisləşməsi ilə əlaqədar apellyasiya şikayəti davam edərkən ev dustaqlığına buraxıldı.[174] T. Yaqublu, 2021-ci ilin iyulunda iki il altı ay sınaq müddətiylə şərti azadlığa buraxıldı.[175] T. Yaqublunun bütün appelyasiya şikayətləri rədd edildi.[176]

*Tofiq Yaqubluya Qarşı Son Həbslər*

2021-ci ilin dekabrında Tofiq Yaqublu Bakıda müxalifət fəalının azadlığa buraxılmasına yönəlmiş dinc etiraz aksiyası zamanı saxlanılıb.[177] Medianın məlumatına görə, polis T. Yaqublu da daxil olmaqla 40-a yaxın etirazçını mühasirəyə alaraq onları avtobusa mindirib, Bakı şəhərindən kənar bir yerdə buraxıb.[178] Tofiq Yaqublu polis bölməsinə aparıldığını, orada döyüldüyünü və polisin ondan "Azərbaycan rəhbərliyini tənqid etməyi dayandıracağını" kamera qarşısında söyləməsini tələb etdiyini deyib.[179] HRW təşkilatının məlumatına görə o, daha sonra, Bakıdan 70 kilometr aralıda, yol kənarında, üzündə və başından xəsarətlərlə tapılıb.[180] Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi qanun pozuntusu ilə bağlı iddiaları təkzib edib.[181] Prokurorluq Tofiq Yaqublunun polisin zorakılığı ilə bağlı iddialarını araşdırmaqdan imtina edib və T. Yaqublunun əslində həbsdə olarkən özünə xəsarət yetirdiyini deyib.[182] Tofiq Yaqublu 15 dekabrda həbsdə olarkən, yenə

---

[172] *Id.*
[173] OC Mediya (OC Media), *Azərbaycan Məhkəməsi müxalifət lideri Tofiq Yaqublunu ev dustaqlığına buraxdı*, 18 sentyabr 2020-ci il, https://oc-media.org/ru/cud-v-azerbaydzhane-perevel-lidera-oppozitsii-tofiga-yagublu-pod-domashniy-arest/.
[174] *Id.*
[175] Beynəlxalq Əfv Təşkilatı, *Azərbaycan: Müxalifət Siyasətçilərinə Qarşı Təzyiqləri Dayandırın,* 15 dekabr 2021-ci il, https://www.amnesty.org/en/latest/news/2021/12/azerbaijan-stop-crackdown-on-opposition-politicians/.
[176] Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №.41020/20, 17 mart 2023-cü il.
[177] HRW, *Azərbaycan: Müxalifət Lideri Həbsdə Döyüldü, 2021,* https://www.hrw.org/news/2021/12/03/azerbaijan-opposition-leader-beaten-custody.
[178] *Id.*
[179] *Id.*
[180] *Id.*
[181] *Id.*
[182] Azadlıq Radiosu Avropa Bürosu, *Azərbaycanlı Müxalif Siyasətçi Polis Nəzarətində "Özünü Döydü", Prokuror Deyir,* 17 yanvar 2022-ci il, https://www.rferl.org/a/yaqublu-police-beating-self-inflicted/31658233.html.

həmin siyasi fəalla bağlı keçirilən nümayişdə yenidən həbs olunub, cərimələnib və daha sonra sərbəst buraxılıb.[183]

23 dekabr 2022-ci ildə Tofiq Yaqublu həbsdə olan digər fəalın azadlığa buraxılması tələbi ilə keçirilən etiraz aksiyasında iştirak etdiyinə görə üçüncü dəfə həbs edilib.[184] O, xırda xuliqanlıq və polisə tabe olmama kimi inzibati xətalar üzrə təqsirli bilinərək 30 sutka müddətinə azadlıqdan məhrum edilib.[185] Bundan sonra, o, etiraz olaraq aclıq aksiyasına başlayıb. T. Yaqublu cəza müddəti ərzində aclıq aksiyasını davam etdirib və 22 yanvar 2023-cü ildə azad edilib.[186]

---

[183] Beynəlxalq Əfv Təşkilatı, *Azərbaycan: Müxalifət Siyasətçilərinə Qarşı Təzyiqləri Dayandırın*, 15 dekabr 2021-ci il, https://www.amnesty.org/en/latest/news/2021/12/azerbaijan-stop-crackdown-on-opposition-politicians/.

[184] OC Mediya, *Həbsdə Olan Müxalifət Lideri Tofiq Yaqublu Aclıq Aksiyasının Beşinci Günündə*, 9 yanvar 2023-cü il, https://oc-media.org/imprisoned-opposition-leader-tofig-yagublu-on-fifth-day-of-hunger-strike/.

[185] *Id*.

[186] Turan AZ, *Tofiq Yaqublu Həbs Müddəti Bitdikdən Sonra Azadlığa Buraxılıb*, 22 yanvar 2023-cü il, https://www.turan.az/ext/news/2023/1/free/Social/en/657.htm.

# METODOLOGİYA

## A. MONİTORİNQ

Fondun müşahidəçiləri Nizami Rayon Məhkəməsində məhkəmə prosesini izləmək üçün Azərbaycana gəlsələr də, onlar Covid-19-la əlaqəli məhdudiyyətlərlə bağlı məhkəmə zalına daxil ola bilməyib. Bu səbəblə, monitorinq hər məhkəmə prosesini zamanı qeydə alınan səs yazıları vasitəsilə aparılıb. Azərbaycan dilində mükəmməl dil bacarığı olan müşahidəçi məhkəmə prosesinin səs yazılarını dinləyərək stenoqramlarını çıxarıb.

## B. QİYMƏTLƏNDİRMƏ

TrialWatch eksperti Darril Braun məhkəmə monitorinqinin hazırladığı qeydləri, habelə müxtəlif məhkəmə sənədlərini, ittiham aktı və hökmünü, Azərbaycan rəsmilərinin daxili siyasi dissidentləri hədəf alan hərəkətləri barədə ictimaiyyətə açıq bəyanatlarını və TrialWatch əməkdaşları tərəfindən hazırlanan bu işi və Azərbaycanda siyasi və hüquqi kontekstin təhlillərini nəzərdən keçirərək, məhkəmə prosesinin ədalətliliyini qiymətləndirmiş və "D" səviyyəsi üzrə qiymətləndirmə nəticəsinə gəlmişdir.

Professor Broun müəyyən edib ki, proses, Avropa İnsan Hüquqları Konvensiyası və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktla qorunan hüquqların pozuntusu ilə müşayiət olunub. Konkret olaraq, Tofiq Yaqublunun AİHK-nın 6-cı və İPM-nin 14-cü maddəsi ilə təsbit olunmuş təqsirsiz hesab edilmə, öz müdafiəsində iştirak etmə, şahid çağırma və üzləşdirmə, müstəqil və qərəzsiz məhkəmə tərəfindən mühakimə olunma hüquqlarının pozuntular baş verib. Bundan əlavə, T. Yaqubluya qarşı ittiham, AİHK-nin 18-ci maddəsini pozmaqla, onun siyasi müxalifət lideri və jurnalist kimi səmərəli fəaliyyətinə mane olmaq məqsədilə, prosesdən gizli siyasi məqsədlərlə sui-istifadəyə gətirib çıxarmışdır.

# A. TƏTBİQ EDİLƏN HÜQUQ

Bu hesabat, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt;[187] Paktın tətbiqi və icrasına nəzarət edən Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsinin (BMT İHK) yurisdiksiyası; Avropa İnsan Hüquqları Konvensiyası;[188] və AİHK-nin tətbiqi və icrasına nəzarət edən Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) yurisdiksiyasını əsas götürür. Azərbaycan MSHP-nə 1992-ci ildə qoşulub. Azərbaycan AİHK-i 2002-ci ildə ratifikasiya edib.

# B. MƏHKƏMƏ PROSESİ ZAMANI POZUNTULAR

## Təqsirsizlik Prezumpsiyası Hüququ

Paktın 14.2-ci maddəsinə əsasən cinayət əməlində ittiham olunan hər bir şəxs, təqsiri qanuna uyğun olaraq sübut edilməyənə qədər günahsız hesab edilmək hüququna malikdir. Bu hüquq, eyni zamanda, AİHK-nin 6.2-ci maddəsi ilə də təsbit olunur.

*Dövlət Rəsmilərinin Şəxsin Təqsirini Öncədən Mühakimə Etməsi*

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi qeyd edir ki, bu hüquq, “ittiham tərəfinin üzərinə ittihamları sübut etmək vəzifəsini qoyur, əsaslı şübhələr olmadan təqsirin ehtimal oluna bilməyəcəyinə təminat verir, müttəhimin şübhədən yararlanmasını təmin edir və cinayət əməlində təqsirləndirilən şəxsə bu prinsipə uyğun davranılmasını tələb edir”.[189] İnsan Hüquqları Komitəsi daha sonra açıq şəkildə qeyd edir “bütün dövlət orqanları, məsələn, ittiham edilən/şübhəli şəxsin təqsirli olduğunu təsdiqləyən açıqlama verme, məhkəmə prosesinin nəticələrini ön görən mühakimə yürütməkdən daşınmalıdır.[190] Eynilə, AİHM, təqsirsizlik prezumpsiyasının “təkcə hakim və ya məhkəmə tərəfindən deyil, digər dövlət orqanları tərəfindən də pozula biləcəyini” bəyan edir.[191]

Konvensiyanın 6.2-ci maddəsi hakimiyyət orqanlarının davam edən cinayət işləri barədə ictimaiyyəti məlumatlandırmasına mane olmasa da, AİHM müəyyən edir ki, onlar bunu “təqsirsizlik prezumpsiyası prinsipini gözləməklə lazımi mülahizə və ehtiyatla”

---

[187] Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, 16 dekabr 1966, 999 U.N.T.S. 171).
[188] Əsasə Hüquq və Azadlıqlar haqqında Avropa İnsan Hüquqları Konvensiyası, 4 noyabr 1950, Erop. T.S. No. 5; 213 U.N.T.S. 221.
[189] İnsan Hüquqları Komitəsi, Ümumi Şərhlər 32, BMT Sənədi CCPR/C/GC/32, 23 avqust 2007-ci il, para. 300.
[190] *Id.*
[191] Avropa İnsan Hüquqları Məhkəməsi, *Allenet de Ribemont Fransaya qarşı iş*, Ərizə №.15175/89, 7 avqust 1996-cı il, para. 36.

etməlidirlər.[192] Bu mənada, istifadə olunan sözlərin seçimi və onların istifadə olunduğu kontekst, şəxsin müəyyən bir cinayətdə ittiham olunduğuna işarə etmə, həmin şəxsin günahkar olduğunu göstərə biləcək mühüm amillərdəndir.[193] Məsələn, Qridin Rusiya Federasiyasına qarşı işdə İnsan Hüquqları Komtəsi, polis rəisinin məhkəmə başlamazdan əvvəl televiziyada müttəhimin "qatil" olduğunu elan etməsi, təqsirsizlik prezumpsiyası hüququnun pozulması kimi tanınıb.[194] Eynilə, Allenet de Ribemont Fransaya qarşı AİHM işində, səlahiyyətli şəxslərin mətbuat konfransında müttəhimi "qətlə təhrik edənlərdən biri və beləliklə də iştirakçı" kimi qələmə verməsi təqsirsizlik prezumpsiyasının pozuntusu kimi müəyyən edilib.[195] Məhkəmənin qeyd etdiyi kimi "ərizəçinin təqsirinin açıq-aydın bəyanı ictimaiyyəti şübhəli şəxsin təqsirli olduğuna inanmağa təşviq etməklə yanaşı, səlahiyyətli məhkəmə orqanı tərəfindən faktların qiymətləndirilməsinə qabaqcadan təsir edib".[196]

Sözügedən işdə, Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ehsan Zahidov 23 mart 2020-ci il tarixində Modern.AZ KİV-ə açıqlama verib.[197] Bəyanat qəzadan bir gün sonra yayılıb və orada T. Yaqublu avtomobil qəzasına yol açma və  E. Cəbrayılov və xanımına hücum etməkdə təqsirli şəxs kimi göstərilib.

Modern.AZ-ın məlumatına görə, M. Zahidov bildirib ki, "Yol-nəqliyyat hadisəsi Tofiq Yaqublunun öz təqsiri üzündən baş verdiyi halda, o, əsaslı səbəb olmadan mübahisə edərək, Elxan Cəbrayılovu və onun sərnişin olan həyat yoldaşı Cəvahir Cəbrayılovanı yumruq və vintaçanla vuraraq onlara müxtəlif dərəcəli bədən xəsarətləri yetirib. Hadisə yerinə polis əməkdaşları gəliblər".[198] E. Zahidov qeyd edib ki, faktla bağlı T. Yaqublu Cinayət Məcəlləsinin 221.3-cü maddəsi ilə şübhəli şəxs qismində saxlanılıb" və əlavə edib, "Tofiq Yaqublu oxşar əməllərinə görə daha əvvəl üç dəfə həbs edilib".[199]

Bu şərhlər, avtomobil qəzasında T. Yaqublunun günahkar olduğunu və Cəbrayılovlara hücumun etdiyini birmənalı şəkildə təsdiq edir (O, bu əməllərə görə sonrada cinayət məsuliyyətinə cəlb edilərək mühakimə olunub). E. Zahidovun T. Yaqublunun oxşar əməllərə görə daha əvvəl üç dəfə həbs edildiyini deməsi, onun bu əmələ görə təqsirkar

---

[192] *Id*. Para. 38.
[193] Avropa İnsan Hüquqları Məhkəməsi*, İsmayılov Azərbaycana  qarşı iş*, Ərizə №. 2947/06, 24 aprel 2008-ci il; Avropa İnsan Hüquqları Məhkəməsi*, Y.B Tükiyəyə qarşı iş*, Ərizə №. 48173/99 & 48319/99, 28 oktyabr 2004-cü il, para. 48.
[194] İnsan Hüquqları Komitəsi*, Qridin Rusiyaya qarşı iş*, BMT Sənədi CCPR/C/69/D/770/1997, 8 iyul 2000-ci il, para. 3.5, 8.3.
[195] Avropa İnsan Hüquqları Məhkəməsi*, Allenet de Ribemont Fransaya qarşı iş*, Ərizə №.15175/89, 7 avqust 1996-cı il, para. 11, 41.
[196] *Id*. para 41.
[197] Modern.AZ, *Tofiq Yaqublu Cütlüyə Yumruq Və Tornavida İlə Zərbə Endirib – Daxili İşlər Nazirliyi*, 23 mart 2020-ci il, https://m.modern.az/az/news/232130/tofiq-yaqublu-er-arvadi-yumruq-ve-vintacanla-vurub-daxili-isler-nazirliyi.
[198] *Id*.
[199] *Id*.

ola biləcəyinə işarə etməklə yanaşı, eyni zamanda keçmiş insidentlər nəzərə alındıqda, bu əməli törətməyə meylli ola biləcəyi mənasını ifadə edir. E. Zahidovun hadisədən sonra, istintaq davam etdiyi zaman verdiyi açıqlama Allenet de Ribemont Fransaya qarşı işində olduğu kimi "ictimaiyyəti [Yaqublunun] təqsirli olduğuna inanmağa təşviq etməklə yanaşı, səlahiyyətli məhkəmə orqanlarında faktların qiymətləndirilməsi zamanı ön mühakimə yaradaraq" onun təqsirsizlik prezumpsiyasının pozub.

*Prokurorluğun Sübutetmə Yükünə Əməl Etməməsi*

Yuxarıda qeyd edildiyi kimi, təqsirsizlik prezumpsiyası dedikdə ittiham tərəfinin üzərinə, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü çıxanadək, təqsirsiz sayılmasını gözləməklə, şəxsin təqsirinin sübuta yetirilməsi yükünü qoyur və şübhəlinin şübhədən yararlandığına əmin edir.[200] İnsan Hüquqları Komitəsi qeyd edir ki, "ümumiyyətlə, faktları və sübutları nəzərdən keçirmək və ya qiymətləndirmək, yaxud milli məhkəmələr və tribunallar tərəfindən daxili qanunvericiliyin təfsirini araşdırmaq Komitənin deyil, iştirakçı dövlətlərin məhkəmələrinin işi " olsa da, Komitə, "Məhkəmə prosesinin aparılmasının və ya faktların və sübutların qiymətləndirilməsinin və ya qanunvericiliyin təfsirinin açıq-aşkar özbaşına olduğu və ya ədalət mühakiməsinin inkarına bərabər olduğu" barədə şərh verə bilər.[201]

Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən, təqsirsizlik prezumpsiyası *in dubio pro reo*, yəni şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll olunur prinsipinin ayrılmaz tərkib hissəsidir.[202] Bununla əlaqədar olaraq, Məhkəmə müəyyən etmişdir ki, kifayət qədər əsaslandırılmamış ittiham hökmü 6.2-ci maddənin pozuntusuna səbəb ola bilər.[203] Məhkəmə daha sonra qərara alır ki, ədalət mühakiməsini həyata keçirən orqan ittiham hökmü çıxararkən, müdafiə tərəfinin şahidinin çağırılması və dindirilməsinin rədd edilməsini, eləcə də müdafiə tərəfi şahid(lər)inin ifadələrinin nə üçün sübutedici əhəmiyyət kəsb etmədiyinə dair əsaslandırma təqdim etmədikdə, *in dubio pro reo* prinsipi pozulmuş hesab olunur.[204]

Tofiq Yaqublunun işində məhkəmə təqsirsizlik prezumpsiyasını kobud şəkildə pozaraq bütün şübhələri ittiham tərəfinin xeyrinə həll etmiş və müdafiə tərəfinin bütün arqumentlərini və sübutlarını rədd etmişdir.

---

[200] İnsan Hüquqları Komitəsi, Ümumi Şərh 32, BMT Sənədi CCPR/C/GC/32, 23 avqust 2007, para. 30.
[201] İnsan Hüquqları Komitəsi, Aşurov Tacikistana qarşı iş, BMT Sənədi CCPR/C/89/D/1348/2005, 2 aprel 2007, para. 6,7. Bax həmçinin, İnsan Hüquqları Komitəsi Larranaga Filippinə qarşı iş, BMT Sənədi CCPR/C/87/D/1421/2005, 24 iyul 2006, para. 7, 4.
[202] Avropa İnsan Hüquqları Məhkəməsi, Melic və Bek Çex Respublikasına qarşı, Ərizə № 35450/04, 24 iyul 2008, para. 49.
[203] *Id*. Para. 49-55; Avropa İnsan Hüquqları Məhkəməsi, *Ajdariç* Xorvatiyaya qarşı, Ərizə № 20883/09, 13 dekabr 2011, para. 46-52.
[204] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, Melic və Bek Çex Respublikasına qarşı, Ərizə № 35450/04, 24 iyul 2008, para. 52-55.

İlk növbədə, hökm, ittiham tərəfinin sübutlarındakı əhəmiyyətli boşluqları və çatışmazlıqları aradan qaldırmadan ittiham tərəfinin hadisələrlə bağlı versiyasını birmənalı şəkildə qəbul edir. Məhkəmə, ittiham tərəfinin şahidlərinin ifadələrinin cavablardan daha çox suallar doğurduğu və hətta, səlahiyyətli qurumların potensial pozuntulara yol verdiyinə işarə etdiyi bir çox halları görməzdən gələrək, "zərərçəkmişlərin və şahidlərin ifadələrinin və iş üzrə toplanmış digər məlumatların"[205] etibarlılığına şübhə olmadığını qeyd edir. Bu hallara, məsələn, polisə ifadə verən T. Yaqublunun E. Cəbrayılovu döyməsinin şahidi olduğunu deyən Novruzovun ibtidai istintaq zamanı verdiyi ifadənin latın əlifbası ilə yazılmasına baxmayaraq, məhkəmədə, latın əlifbasını yazıb-oxuya bilmədiyini etiraf etməsi; ibtidai istintaqda verdiyi ifadədə T. Yaqublunun E. Cəbrayılova "vintaçan"la hücum etdiyini gördüyünə baxmayaraq, məhkəmə prosesi zamanı "vintaçan" sözünü bilmədiyini etiraf etməsi və; ittiham tərəfinin şahidlər siyahısında adı çəkilən şəxsin 'Cavanşir' olmasına rəğmən adının "Novruz" olmasını misal göstərmək olar. Bu səbəbdən, müdafiə tərəfi, həmin şahidin əslində başqa insan olduğu və sözügedən hadisələrdən xəbəri olmadığını irəli sürdü. Hökmdə isə həmin şahidin ifadəsindəki açıq-aşkar ziddiyyətlərə məhəl qoyulmadan, deyilir: "Adı Novruz olsa da, hamı onu Cavanşir kimi tanıyırdı və bu adla çağırırdı, ona görə də müstəntiqlər tərəfindən dindirilən zaman o, özünü Cavanşir kimi təqdim etmişdir". Adı çəkilən şəxs Novruz Novruzov ibtidai istintaq və məhkəmə iclasında iş üçün əhəmiyyət kəsb edən halları bilən şəxs qismində şahid qismində ifadə verib, ifadələr arasında heç bir ziddiyyət olmayıb".[206]

İttiham tərəfinin şahidləri arasında Novruzovun ifadəsi unikallığı baxımından ittiham tərəfinin işindən heç də geridə qalmırdı. Məsələn, əməliyyat müvəkkili Elxan Cəfərov da azərbaycan dilində vintaçan sözünü tanımayıb və bununla da, eyni sözü işlətdiyi məhkəməyəqədərki ifadəsi ilə ziddiyət təşkil edib. O, daha sonra, hadisə yerinə gələndə iddia edilən zərərçəkmişlərin oturmuş halda olduqlarını desə də, ibtidai istintaq zamanı onların ayaqüstə olduğu bildirib. Hökmdə, bu kimi ziddiyətlər nəzərə alınmayıb.

Bu zaman, ibtidai istintaqda verdikləri ifadələrində T. Yaqublunun E. Cəbrayılovu döyməsinin şahidi olduqlarını iddia edən ittiham tərəfinin digər şahidləri də sonda məhkəmədə öz ifadələrindən imtina ediblər. Məsələn, Əli Ağayev ifadəsində sadəcə toqquşmanı eşitdiyini, lakin heç nə görmədiyini deyib. Hökm, ittiham tərəfinin işindəki bu hallara məhəl qoymur: "Şahid "Əli Şakir oğlu Ağayev"in ifadəsinə gəldikdə, məhkəmə qeyd edib ki, şahid hadisədən xeyli vaxt keçməsi səbəbindən, ifadəsini tam xatırlamasa da, işin halları və onun ifadəsi ümumilikdə aydınlaşdırılıb".[207] Məhkəmənin sübutların qiymətləndirilməsi zamanı diqqətsizliyinin başqa bir əlaməti, ittiham tərəfinin şahidi Əli Ağayevi müdafiə tərəfinin şahidi Şakir Ağayevlə qarışdırması olub.

---

[205] Hökm.
[206] *Id.*
[207] *Id.*

Məhkəmə, eynilə, E. Cəbrayılovun ilkin ifadəsində T. Yaqublunun ona dəmirlə vurduğunu, lakin məhkəmə prosesi zamanı vintaçandan istifadə etməsini deməsini, eləcə də həyat yoldaşına avtomobilin qapısının dəydiyini görmədiyini dediyi halda, çarpaz sorğuda gördüyünü deməsi kimi uyğunsuzuqları da nəzərə almadı.

İkincisi, hökmdə müdafiə tərəfinin təqdim etdiyi sübutlara heç bir məhəl qoyulmur. Məsələn, Maya Yaqublu ifadəsində Cəvahir Cəbrayılovanın "avtomobilin qapısını açmaq üçün dəstəyi çəkdiyini", həmin vaxt "Tofiqin maşında olduğunu […və] bütün qapıları bağladığının" şahidi olduğunu və əslində C. Cəbrayılovanı avtomobildən itələyənin T. Yaqublu yox, özü olduğunu bildirib.[208] Lakin məhkəmə öz qərarında onun ifadəsinə qəti şəkildə məhəl qoymayıb. "Təqsirləndirilən şəxs [onun] yaxın ailə üzvü – həyat yoldaşı [ – ] olduğundan, şahid M.Yaqublunun ifadəsi təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə nail olunması məqsədi daşıdığına görə, məhkəmə tərəfindən nəzərə alınmır."[209] Bununla belə, hökmdə Cəbrayılovlar arasında ər-arvad münasibətlərinin onların ifadələrinin etibarlılığına təsir edə biləcəyi ilə bağlı heç bir narahatlıq ifadə edilmir. Bundan əlavə, hökm, cənab və xanım Yaqublunun ifadələrinin uyğunluğuna heç bir əhəmiyyət vermir.

Hökm, həmçinin, ittiham tərəfinin hadisələrlə bağlı təsvirini mübahisələndirə biləcək videogörüntüləri rədd edir. İttiham aktında qəzanın 15:00 radələrində baş verdiyi və C. Cəbrayılovanın, T. Yaqublunun E. Cəbrayılova hücum etməsindən sonra, saat 15:21-də polisə zəng edərək hadisə barədə məlumat verdiyi göstərilir. Müdafiə tərəfinin təqdim etdiyi, üzərində saat 15:25-i göstərdiyi videogörüntüdə, Cəbrayılovun avtomobilinin təsvirinə uyğun gələn VAZ 2017 markalı avtomobilin (nömrə nişanı aydın deyil) içində oturaraq (daha sonra prokurorluq tərəfindən qəbul edildi) bazar yaxınlığında saxladığı və 15:26-da saxladığı yerdən ayrıldığı və daha sonra kamera görüntüsündən çıxdığı görünür.[210] Müdafiə tərəfinin sözlərinə görə, bu, qəzanın yalnız saat 15:25-dən sonra baş verə biləcəyini və Cəvahir Cəbrayılovanın faktiki toqquşmadan dörd dəqiqə əvvəl polisə müraciət etdiyini göstərir. Lakin, məhkəmə, bu dəlilləri vurğulamaq və onları qiymətləndirmək əvəzinə, Bakı şəhəri Nizami Polis İdarəsinin məktubunda göstərilən "bazarın qarşısında və cinayətin baş verdiyi yerdə heç bir təhlükəsizlik kamerası və ya hər hansı kamera quraşdırılmayıb..."[211] sözlərinə və E. Cəbrayılovun görüntülərdəki avtomobilin ona məxsus olduğunu inkar edən ifadəsinə istinad edib.[212] Hökm, ümumi çərçivəsindən kənara çıxmayaraq bu qənaətə gəlir: Videodakı sübutlar polis və prokurorluq orqanlarının önə sürdüyü vaxt çərçivəsi ilə ziddiyət təşkil etdiyi üçün,

---

[208] Monitorinq Qeydləri, 1 sentyabr 2020-ci il.
[209] *Id.*
[210] *Id.* TrialWatch videonu izləyib
[211] *Id.*
[212] *Id.*

“məhkəmə, müdafiə tərəfinin videoda qeydə alınan avtomobilin zərərçəkmiş Elxan Cəbrayılova aid olduğu yönündəki iddialarının əsassız olduğu qənaətindədir.”[213]

Müdafiə tərəfinin şahidləri Şakir Ağayev və Mirməhəmməd Mahmudzadənin polisin, onların toqquşmanın şahidi olduqlarına dair ifadələrini saxtalaşdırdığını bildirən ifadələrinə gəlincə, qərarda hər ikisinin “şərti” şahid olduğu bildirilir, lakin polisin qanunsuz hərəkəti ilə bağlı iddialar müzakirə olunmur.

Üçüncüsü, məhkəmə müdafiə tərəfinin daha geniş arqumentlərinin heç birini nəzərə almır. Məsələn, məhkəmədə müdafiə tərəfi dəfələrlə insidentlə bağlı nə üçün heç bir təhlükəsizlik kamerası görüntüləri olmadığı; istintaq hesabatlarında Cəbrayılovun köynəyinin vintaçanla deşilməsi, həm paltarı, həm də vintaçanda qan izləri olduğu müəyyən edilsə də, ekspertiza rəyində Cəbrayılovun niyə yalnız yüngül xəsarətləri olduğu və; T. Yaqublu ilə E. Cəbrayılov arasında qızğın mübahisənin əsas predmeti olduğu halda, məhkəmə tibbi-ekspertizasının vintaçan üzərində niyə barmaq izi tapmaması kimi suallar yönəldib. Məhkəmə dəlil və iddiaları qiymətləndirərkən bu məsələlərin heç birinə toxunmayıb.

Nəticədə, hökmdə, təqsirsizlik prezumpsiyasının əksinə, şübhələr bütövlükdə prokurorluğun xeyrinə çevrilib və bütün qeyri-müəyyənliklər və ziddiyətlər ittiham tərəfinin lehinə həll edilib.

## Prosesdə Səmərəli İştirak Etmə və Hüquqi Yardım Alma Hüququ

MSHP-nin 14-cü maddəsi və AİHK-nın 6-cı maddəsi cinayət törətməkdə təqsirləndirilən şəxslərin prosesdə səmərəli iştirakı[214] və özünü müdafiə etmə kimi minimum hüquqlarını təmin edir. Avropa İnsan Hüquqları Məhkəməsi işində deyilir: “Konvensiyanın 6-cı maddəsi bütövlükdə cinayət ittihamında təqsirləndirilən şəxsin prosesdə səmərəli iştirak hüququnu təmin edir. Buraya, yalnız onun iştirakı deyil, eyni zamanda prosesi eşitmə və onu izlyə bilmə hüququ da daxildir.”[215] Konvensiyanın 6-cı maddəsi eyni zamanda təqsirləndirilən şəxsin şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq hüququnu təmin edir.[216]Müdafiə olunmaq, eyni zamanda, cavabdehin və ya təqsirləndirilən şəxsin məhkəmə prosesi boyu real vaxt çərçivəsində müdafiəçi ilə məxfi əlaqə saxlamaq imkanını nəzərdə tutur. AHİM qeyd edir “təqsirləndirilən şəxsin üçüncü

---

[213] *Id.*

[214] Prosesdə səmərəli iştirak 14-cü maddənin bir sıra bəndlərində öz əksini tapır: icraatın gedişatını tam izləmək üçün, məhkəmədə istifadə olunan dili başa düşmürsə və yaxud bu dildə danışa bilmirsə, tərcüməçi köməyindən istifadə etmək; öz iştirakı ilə mühakimə olunmaq; öz müdafiəsinə hazırlaşmaq; eyni zamanda təqsirləndirilən şəxsin məhkəmə prosesini eşitmək və izləmək üçün müvafiq olaraq vəkillə mütəmadi məsləhətləşmək iqtidarında olduğunu ifadə edir.

[215] Avropa İnsan Hüquqları Məhkəməsi, *Murtazaliyeva Rusiyaya qarşı,* Ərizə № 36658/05, 18 dekabr 2018, para. 91.

[216] Bax, AİHK, Maddə 6.3 (c).

şəxs tərəfindən dinlənilmək riski olmadan vəkili ilə ünsiyyət qurmaq hüququ demokratik cəmiyyətdə ədalətli məhkəmə araşdırmasının əsas tələblərindən biridir, əks halda hüquqi yardım öz faydasını demək olar itirir.”[217] BMT-nin İnsan Haqları Komitəsi də, eyni şəkildə, 14-cü maddəni əsas tutaraq bəyan edir ki, vəkil “müştəriləri ilə təkbətək görüşə və onların məlumatlarının məxfiliyinə tam hörmət edən şəraitdə təqsirləndirilən şəxslərlə ünsiyyət qura bilməlidir.”[218]

Yaroslav Belousov işində AİHM Rusiya məhkəmə orqanlarının ərizəçi və digər müttəhimlərin məhkəmə icraatı boyunca kiçik şüşə kabində saxlanmasl ilə bağlı məhkəmə işinə baxıb.[219] Məhkəmə qeyd edib ki, şüşə kabində saxlama “müttəhimin prosesdə birbaşa iştirakını məhdudlaşdırıb,” məhkəmə nəzarətçilərinin eşidə bilməyəcəyi şəraitdə “vəkili ilə konfidensial danışıq imkanının qarşısı alıb” və müttəhimin qeydlər aparmasına və ya sənədlər almasına mane olub, bununla, onun, prosesdə səmərəli iştirak etmək, praktiki və səmərəli hüquqi yardım almaq hüquqlarını pozub.[220]

Birinci instansiya məhkəməsinin bu məhdudiyyətləri aradan qaldırmaq üçün heç bir addım atmadığını nəzərə alaraq, AHİM, müttəhimin şüşə kabinədə saxlanmasını onun ədalətli mühakimə araşdırması hüquqlarının, o cümlədən məhkəmə prosesində effektiv iştirak etmək və özünü vəkili vasitəsilə müdafiə etmək hüququnun pozuntusu kimi müəyyən edib.[221]

Yaroslav Belousov işində olduğu kimi, birinci instansiya məhkəməsində bütün məhkəmə prosesi boyu Tofiq Yaqublu məhkəmə zalının bir kənarında qapalı şüşə kabinədə saxlanıb. Bu baryerə görə, Yaqublu prosesi eşitməkdə çətinlik çəkib. Yuxarıda müzakirə edildiyi kimi, T. Yaqublu və vəkilləri bu problemə görə onun şüşə kabindən çıxarılması ilə bağlı müraciət etdikdə, məhkəmə bu vəsatəti rədd edib. Bundan əlavə, Tofiq Yaqublu vəkillərindən aralı, zalın digər bir tərəfində saxlandığına görə onun proses zamanı vəkillə təkbətək söhbət etmək imkanı olmayıb.

Yuxarıda deyilənləri nəzərə alaraq, Tofiq Yaqublunun prosesdə effektiv iştirak və vəkil vasitəsilə özünü müdafiə etmək hüququ pozulub.

---

[217] Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaroslav Belousov* Rusiyaya qarşı, Ərizə № 2653/13 & 60980/14, 4 oktyabr 2-16, para. 149; Bax, həmçinin Avropa İnsan Hüquqları Məhkəməsi, *Sakhnovskiy* Rusiyaya qarşı, Ərizə №21272/03, 2 noyabr 2010-cu il, para. 97.
[218] İnsan Hüququları Komitəsi, Ümumi Şərh № 32, BMT Sənədi CCPR/C/GC/32, 23 avqust 2007-ci il, para. 34.
[219] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaroslav Belousov Rusiyaya qarşı*, Ərizə № 2653/13 & 60980/14, 4 oktyabr 2-16, para. 74.
[220] *Id.* Para. 151-153.
[221] *Id.* Para. 152-153 *(Konvensiyanın 6.1, 6.3 (b) və 6.3 (c) maddəsinin bəndləri üzrə pozuntu tanınıb).*

## Şahid Çağırma və Dindirmə Hüququ

Şahidləri çağırma və dindirmək hüququ ədalətli məhkəmə araşdırmasının əsas komponentidir və MSHP və AİHK tərəfindən bilavasitə təmin edilir.[222] Bu hüquq, həm müdafiə tərəfinin öz şahidlərini çağırmaq imkanına, həm də ittiham tərəfinin şahidlərini effektiv şəkildə çarpaz dindirmək hüququnu özündə ehtiva edir. Hər iki sənəddə təcəssüm olunmuş tərəflərin bərabərliyi prinsipi, müdafiə tərəfinin ittihamedici sübutlarla tanış olmasını və buna müvafiq öz sübutlarını ittiham tərəfi ilə eyni şərtlərlə təqdim edə bilməsini təsbit edir.[223]

Müdafiə tərəfinin şahidlərini çağırmaq hüququ mütləq olmasa da, BMT-nin İnsan Hüquqları Komitəsi bəyan edir ki, müdafiə tərəfi, prosessual tələblərə uyğun olaraq, zamanında təklif olunan[224] aidiyyəti şahidləri çağırmaq hüququna malikdir.[225] Avropa İnsan Hüquqları Məhkəməsi, eynilə, müdafiə tərəfinin vəsatətini "qıcıqlandırıcı" olmadığı, "kifayət qədər əsaslandırılmış [və] ittihamın predmetinə aid olduğu" və müdafiənin işini gücləndirə biləcəyi" hallarda şahidləri çağırmaq hüququna malik olduğunu bildirir.[226] Çarpaz dindirmə ilə bağlı AHİM aydın şəkildə qeyd edir ki, "təqsirləndirilən şəxsə, onun əleyhinə olan şahidə etiraz etmək və onu dindirmək üçün adekvat və lazımi imkan verilməlidir."[227]

Beləliklə, müdafiə tərəfinin suallarına qoyulan məhdudiyyətlər, onun şahidləri çağırmaq və dindirmək hüququnu poza bilər. İnsan Hüquqları Komitəsi müəyyən edir ki, məhkəmənin, müdafiə tərəfinin ittiham tərəfinin əsas şahidlərinin çarpaz dindirilməsinə hədsiz müdaxiləsi, eyni zamanda, müdafiə tərəfinin bir neçə şahidini çağırmaqdan imtina etməsi, bu hüququn pozuntusu hesab edilir.[228]

Picuqin Rusiyaya qarşı işdə Məhkəmə müəyyən edir ki, məhkəmə sədrinin, müdafiə tərəfinin ittiham tərəfinin əsas şahidinin etibarlılığı və inandırıcılığını sorğulamaq məqsədilə yönləndirdiyi sualların qarşısını alması və həmin şahidin işin halları ilə bağlı verilən suallardan yayınmasına izn verməsi, ərizəçinin ədalətli məhkəmə araşdırması

---

[222] MSHP-nin 14.2(e) maddəsi; AİHK-nin 6.3(d) maddəsi.
[223] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Rove və Davis Birləşmiş Krallığa qarşı,* Ərizə № 28901/95, 16 fevral 2000-ci il para.60.
[224] İnsan Hüququları Komitəsi, *Conson İspaniyaya qarşı,* BMT Sənədi CCPR/C/86/D/1102/2002, 27 mart 2006-cı il, para.6.5; İnsan Hüququları Komitəsi, Ümumi Şərh № 32, BMT Sənədi CCPR/C/GC/32, 23 avqust 2007-ci il, para. 39.
[225] İnsan Hüququları Komitəsi, *Saidov Tacikistana qarşı*, BMT Sənədi CCPR/C/122/D/2680/2015, 20 sentyabr 2018-ci il, para. 9.6.
[226] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Polyakov* Rusiyaya qarşı, Ərizə № . 77018/01, 29 yanvar 2009-cu il, para. 34.
[227] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Picuqin* Rusiyaya qarşı, Ərizə № . 38623/03, 23 oktyabr 2012-ci il, para. 195.
[228] Bax, İnsan Hüquqları Komitəsi, *Larranaga Filippinə qarşı,* BMT Sənədi CCPR/C/87/D/1421/2005, 24 iyul 2006-cı il, para. 7.7.

hüququnu pozmuşdur.[229] Avropa İnsan Hüquqları Məhkəməsi müəyyən edir ki, şahidə müvafiq suallara cavab verməkdən imtina üçün "təmənnasız icazə" verməklə və ona, qanunla müəyyən edilmiş suallara cavab vermək vəzifəsi barədə xəbərdarlıq etməməklə, sədrlik edən hakim, müttəhimin şahidləri dindirmək hüququnu pozmuşdur.[230] Bundan başqa, Məhkəmə müəyyən edir ki, hakim tərəfindən şahidin keçmiş məhkumluğuna, sözügedən işlə bağlı ikinci müsahibəyə qədər müttəhim haqqında ittiham xarakterli ifadələr verməməsinə və ona prokurorluq tərəfindən mümkün təzyiqlər ola biləcəyinə dair şahid ifadələrinin etibarlılığının yoxlanmasına yönəlmiş müdafiə suallarına məhəl qoyulmaması, şahidin ifadələrinin düzgün qiymətləndirilməsinin qarşısını almışdır.[231] Məhkəmənin fikrincə, müdafiə tərəfinə "[şahidin] etibarlılığını və inandırıcılğını yoxlamağa" icazə verilməli idi.[232] Məhkəmə, hakimin şahidə əsas suallara cavab verməkdən imtina etməsinə icazə verməsini və onun etibarlılığının yoxlanılmasını məhdudlaşdırmasını, cavabdehin ədalətli məhkəmə araşdırması və şahidləri çağırmaq və dindirmək hüququnun pozuntusu kimi tanıyıb.[233]

*Müdafiənin Çarpaz Dindirməsinə Müdaxilə*

Sözügedən məhkəmə işində Tofiq Yaqublunun Picuqin işində olduğu kimi şahid çağırma və dindirmə hüququ pozulub. Misal olaraq, müdafiə tərəfi, E. Cəbrayılovun dindirməsi zamanı həyat yoldaşının avtomobilin qapısı ilə vurulmasını görmədiyini, lakin çarpaz dindirmə zamanı hadisəyə həqiqətən də şahidi olduğunu deməsi kimi ziddiyətli ifadələrini sorğulayarkən, məhkəmə buna müdaxilə etmiş və müdafiə tərəfinə heç bir əsas gətirmədən başqa bir suala keçməsini tələb etmişdir.[234] Müdafiə tərəfi növbəti suallara keçərək, Cəbrayılovun hadisə zamanı paltarında aşkar olunan zədələrlə, bədənində aşkar edilmiş yüngül xəsarətlərin niyə uyğun gəlmədiyini soruşarkən, hakim yenə də müdaxilə etmiş və suala tamamilə məhəl qoymada şahidin ifadə verməsinə icazə verməmişdir.[235] Hakim, daha sonra, müdafiə tərəfinin toqquşma zamanı avtomobillərin vəziyəti barədə şahidə yönəltmiş olduqlar suala müdaxilə etmişdir.[236] Nəhayət, müdafiə tərəfinin vəkili hakimə "mən sual verə bilmərəm?" sualını yönləndirərkən, hakim onu "xaos yaratmaqla" günahlandırmışdır.[237]

---

[229] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Picuqin* Rusiyaya qarşı, Ərizə № . 38623/03, 23 oktyabr 2012-ci il, para. 53-56, 172, 210-212.
[230] *Id*. Para. 204-205. ("Məhkəmə, sədrlik edən hakimin şahidin suallara cavab verməkdən belə əsassız imtinası reaksiyasını özünəməxsus hesab edir. Məhkəmə prosesinin ədalətliliyinin əsas keşikçisi olmaqla o, daxili qanunvericiliyə əsasən çəkişmə prosesi və tərəflərin bərabərliyi prinsiplərinə əməl olunmasını təmin etmək üçün bütün lazımi tədbirləri görməlidir." *Id*. Para. 204).
[231] *Id*. Para. 210.
[232] *Id*.
[233] *Id*. Para. 212-2013.
[234] Monitorinq Qeydləri, 7 avqust 2020-ci il.
[235] *Id*.
[236] *Id*.
[237] *Id*.

Eləcə də müdafiə tərəfi polis əməkdaşı Elxan Cəfərovun yazılı ifadələrində hadisə yerinə gələndə E. Cəbrayılov və C. Cəbrayılovanın ayaqüstə olduqlarını, lakin şifahi ifadəsində onların əyləşdiklərini bildirməsinin səbəbini soruşanda, hakim suallara müdaxilə edərək soruşub: "Bu [nə] əhəmiyyət kəsb edir?".[238] Müdafiə tərəfi aydınlaşdıraraq, "[bu], şahidin həqiqəti söyləmədiyini göstərir. O, heç Azərbaycan dilində "vintaçan" sözünü belə bilmir". Məhkəmə "şahid xatırladığını deyir" deyərək növbəti dindirmə suallarını dayandırıb.[239]

Müdafiə tərəfi ittihamın şahidi Əli Ağayevi yazılı və şifahi ifadəsində ziddiyətli ifadələr verməsi ilə bağlı çarpaz dindirərkən, hakim yenidən müdaxilə edib. Misal olaraq, Ağayev yazılı ifadəsində toqquşmanı və Yaqublunun vintaçanla hücum etdiyini gördüyünü ifadə desə də, o, şifahi ifadəsində toqquşmanı sadəcə eşitdiyini və vintaçanı görmədiyini bildirib. Hakim şahid ifadəsini səsli oxuduqdan sonra, müdafiə tərəfi Ağayevə vintaçan barədə və kimin kimi vurması ilə bağlı suallar yönləndirərkən, hakim, bu sualı yalnız hakimin verə biləcəyini və "başqa suala keçməsini" tələb edib.[240] Müdafiə, həmin an "prokurorluğun verə bildiyi halda, niyə biz sual verə bilmirik"[241] sualına, hakim "o sizin suallara artıq cavab verib, başqa suallara ehtiyac yoxdur" cavabı verib.[242] Müdafiə tərəfi bu sualların ifadələrdəki ziddiyətləri işıqlandırmaq olduğunu bildirib və daha da irəli gedərək məhkəməyə "hakimin tərəfli" olması ilə bağlı şikayətlə müraciət etsə də, hakim bu şikayəti təmin etməyib.[243]

Müdafiə tərəfinin suallarına icazə verməməklə - şahidlərə ittiham tərəfinin işini əksinə çevirəcək suallardan yayınmaqda effektiv kömək etməklə - məhkəmə müttəhimin şahidləri çağırmaq və dindirmək hüququnu pozmuşdur. Bunun təksinə, məhkəmə, heç bir müdaxilə etmədən, ittiham tərəfinə müdafiə tərəfinin şahidlərinə demək olar istənilən sualı vermək icazəsi verib.

*Müdafiənin Şahidləri Çağırma Vəsatətlərinin Rədd Edilməsi*

Məhkəmə Tofiq Yaqublunun İsa İsmayılov kimi onun ifadəsini təsdiqləyə biləcək bəzi şahidləri çağırmaq tələbini rədd edib (yuxarıda müzakirə edildiyi kimi, İsa İsmayılov Maya Yaqublu ilə bazara gedərkən, T. Yaqublunun avtomobilini kilidləyib oturduğunu və bu zaman Cəbrayılovların ona qışqırdıqlarını və avtomobildən çıxarmağa cəhd etdiklərini gördüyü barədə ifadə verib). Məhkəmə heç bir izahat vermədən bu tələbi rədd edib. İ. İsmayılovun işin mahiyyəti ilə bağlı əsas hadisələrin şahidi olduğunu, xüsusən də ittiham tərəfinin şahidlərinin ifadələrindəki ziddiyyətləri nəzərə aldıqda, onun dindirilməsinə mane olmaq üçün heç bir əsas olmayıb.

---

[238] Monitorinq Qeydləri, 19 avqust 2020-ci il.
[239] *Id*.
[240] Monitorinq Qeydləri, 28 avqust 2020-ci il.
[241] *Id*.
[242] *Id*.
[243] *Id*.

Məhkəmə, eynilə, müstəntiq Ramil Əliyevin dindirilməyə çağırılması tələbini rədd edib. Müdafiə tərəfi,Əliyevin, Yaqublunun məhkəməyəqədər prosesdə baş verən pozuntular barədə məlumatlar verə biləcəyini bildirib. Belə ki, bunların sırasında, dindirmə zamanı Yaqublunun vəkilə çatımlılıq hüququnun təmin edilməməsi, özünün və həyat yoldaşının telefonlarından əhəmiyyət kəsb edəcək sübutların silinməsi və şahid ifadələrinin saxtalaşdırılması iddia edilən hallar olub. Məhkəmə bu tələbi heç bir əsas gətirmədən rədd edib. Bu hal, yenə də, ittiham tərəfinin öz sübutlarını əsaslandırmaq üçün çağırmasına icazə verilən polis əməkdaşlarının sayı ilə təzad təşkil edib.

Məhkəmənin müdafiə tərəfinin şahidlərinin çağırılmasını rədd etməsi, bir daha T. Yaqublunun şahidləri çağırmaq və dindirmək hüququnun pozuntusuna səbəb olmuşdur.

## İşə Səlahiyyətli, Müstəqil və Qərəzsiz Məhkəmə Tərəfindən Baxılması Hüququ

MSHP-nin 14-cü maddəsinə əsasən, "Hər bir şəxs, ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılması zamanı......qanun əsasında yaradılan səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq araşdırma hüququna malikdir." BMT İnsan Hüquqları Komitəsi açıq şəkildə qeyd edir ki, səlahiyyətli, müstəqil və qərəzsizlik tələbləri "mütləq olmaqla, heç bir güzəştə tabe deyil."[244] Məhkəmənin qərəzsizliyinin təminatı həm subyektiv, həm də obyektiv müstəvidə özünü ehtiva edir. Subyektiv dedikdə, hakim, qərara təsir etməyəcək ön fərziyyələrdən, ön mühakimədən və ya qərəzdən azad olmaqla, məhkəmə prosesi iştirakçılarının bir tərəfini digərinə qarşı ədalətsiz şəkildə üstün tutan hərəkətlərdən çəkinməlidirlər.[245]Obyektiv müstəvi dedikdə isə, hətta faktiki qərəzlilik olmasa belə, məhkəmə ağlabatan hər hansı bir müşahidəçinin gözündən qərəzsiz görünməlidir.[246] Aşurov Tacikistana qarşı işdə İnsan Hüquqları Komitəsi 14(1)-ci maddənin pozuntusunu müəyyən edir ki, (ərizəçinin də dediyi kimi) hakim "ittiham tərəfinin şahidlərinə aparıcı suallar verib, onların cavablarını düzəldib, tamamlayıb və məhkəmənin katibinə yalnız [təqsirləndirilən şəxsin] təqsirini təsdiq edən ifadələr qeyd etməyi tapşırıb."[247] Komitə, eynilə, birinci instansiya məhkəməsi tərəfindən müdafiə tərəfinin iddialarına və vəsatətlərinə məhəl qoyulmadığına görə, MSHP-nin 14(1) maddəsinə uyğun olaraq qərəzsizliyin təminatının pozuntusunu aşkar etmişdir.[248] Qeyd

---

[244] İnsan Hüquqları Komitəsi, Ümumi Şərh № 32, BMT Sənədi CCPR/C/GC/32, 23 avqust 2007-ci il, para. 19.

[245] *Id*. para. 21. Bax həmçinin, İnsan Hüquqları Komitəsi, *Saidov Tacikistana qarşı*, BMT Sənədi CCPR/C/122/D/2680/2015, 20 mart 2007-ci il, para. 2.8, 6.6; İnsan Hüquqları Komitəsi, *Karttunen Finlandiyaya qarşı,* BMT Sənədi CCPR/C/46/D/387/1989, 5 noyabr 1992-ci il, para. 7.2.

[246] İnsan Hüquqları Komitəsi, Ümumi Şərh № 32, BMT Sənədi CCPR/C/GC/32, 23 avqust 2007-ci il, para. 21.

[247] İnsan Hüquqları Komitəsi, *Saidov Tacikistana qarşı,* BMT Sənədi CCPR/C/122/D/2680/2015, 20 mart 2007-ci il, para. 2.8, 6.6.

[248] İnsan Hüquqları Komitəsi, *Kostikoev Tacikistana qarşı*, BMT Sənədi CCPR/C/97/D/1519/2006, 3 dekabr 2009-cu il, para. 7.2-7.3. Bax həmçinin, İnsan Hüquqları Komitəsi, *Komidova Tacikistana qarşı,*

edək ki, Komitə 14(1)-ci maddənin pozuntularını aşkar edərkən, ümumiyyətlə, subyektiv və obyektiv qərəzlilik arasında aydın fərq qoymur.

Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə əsasən "hər bir şəxs müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir." Avropa İnsan Hüquqları Məhkəməsi bu hüququ şərh edərkən vurğulamışdır ki, demokratik cəmiyyətlər "ictimaiyyətdə və hər şeydən əvvəl cinayət mühakiməsi ilə bağlı təqsirləndirilən şəxslərdə etimad yaradan" məhkəmələrin olması tələbini qoyur.[249]

Avropa İnsan Hüquqları Məhkəməsi də BMT İnsan Hüquqları Komitəsi kimi məhkəmənin qərəzsizliyini subyektiv və obyektiv meyarlar üzrə müəyyən edir. Subyektiv meyara görə, hakim işi şəxsi maraqlar və ön mühakimə ilə apara bilməz.[250] Hakimin "düşmənçilik" və ya "pis niyyət" nümayiş etdirməsi kimi əlamətlər olmayana qədər, Məhkəmə hakimə qarşı heç bir qərəzli mövqe tutmur.[251] Məhkəmə Ramişvili və Kokreidze Gürcüstana qarşı işində (ərizə Konvensiyanın 5.4 və 6.1-ci maddələrinin pozuntusu irəli sürülüməklə məhkəməyəqədər icraatı əhatə etməsinə baxmayaraq) şəxsi qərəzin məhkəmə zalında necə özünü birüzə verə biləcəyi ilə bağlı nümunə nümayiş etdirir.

Ramişvili və Kokreidze Gürcüstana qarşı işində proses aşağıdakı kimi təsvir edilmişdir: müdafiə tərəfi "prokuroru çaşdıran suallar verdikdə, hakim bunun əvəzinə ya birbaşa cavab verib... ya da sualları aparıcı şəkildə təkrarlayıb və bununla da, prokuror üçün münasib cavab verə bilmə şəraiti yaradıb."[252] Belə bir şəraitdə, Məhkəmə, "hakim dinləmə zamanı ittihamçı yerinə ya müdafiə tərəfinin suallarına birbaşa cavab vermək, ya da bu sualları prokuror üçün daha sərfəli formada ifadə etməklə, aşkar şəkildə prokurora kömək edib" nəticəsinə gəlib.[253] Məhkəmə nəticə etibarilə qərara alıb ki, hakimin hərəkətlərini "qərəzsiz adlandırmaq...olmaz".[254]

---

BMT Sənədi CCPR/C/81/D/1117/2002, 29 iyul 2004-cü il, para. 6.5; İnsan Hüququları Komitəsi, *Saidova Tacikistana qarşı*, BMT Sənədi CCPR/C/81/D/964/2001, 8 iyul 2004-cü il, para. 6.7; İnsan Hüququları Komitəsi, *Toshey* Tacikistana qarşı, BMT Sənədi CCPR/C/101/D/1499/2006, 28 aprel 2011-ci il, para. 6.6.

[249] Avropa İnsan Hüquqları Məhkəməsi, *Kiprianou Kiprə qarşı,* Ərizə № 73797/01, 15 dekabr 2005-ci il, para. 118.

[250] Avropa İnsan Hüquqları Məhkəməsi, *Nikolas Kiprə qarşı,* Ərizə № 63246/10, 9 yanvar 2018-ci il, para.49.

[251] Avropa İnsan Hüquqları Məhkəməsi, *Kiprianou Kiprə qarşı,* Ərizə № 73797/01, 15 dekabr 2005-ci il, para. 118-119; Avropa İnsan Hüquqları Məhkəməsi, *Hauşild Danimarkaya qarşı,* Ərizə №10486/83, 24 may 1989-cu il, para.47.

[252] Avropa İnsan Hüquqları Məhkəməsi, *Ramişvili və Kokreidze Gürcüstana qarşı iş,* Ərizə № 1704/06, 27 yanvar 2009-cu il para. 61, 134, 136.

[253] *Id*. Para. 134.

[254] *Id*.

Obyektiv meyara gəldikdə isə, Məhkəmə, ağlabatan müşahidəçiyə görə məhkəmənin qərəzli olmasına səbəb ola biləcək faktların mövcudluğunu müəyyən edir. Məhkəmə, *Nikolas Kiprə qarşı* işində qeyd etdiyi kimi:

> hakimin davranışından savayı, onun qərəzsizliyinə şübhə yarada biləcək faktların olub-olmaması müəyyən edilməlidir. Bu, o deməkdir ki, müəyyən bir işdə konkret hakimin və ya tərkibin qərəzsizliyindən şübhə duymaq üçün qanuni əsasın olub-olmaması barədə qərar verərkən, müvafiq şəxsin mövqeyi vacibdir, lakin həlledici deyil. Həlledici olan bu şübhənin obyektiv olaraq əsaslandırıla bilərliyidir.[255]

Obyektivlik meyarına ilk növbədə "hakimlə məhkəmə prosesinin digər subyektləri arasında iyerarxik və ya digər əlaqələri və ya eyni şəxs tərəfindən məhkəmə prosesi zamanı müxtəlif funksiyaların yerinə yetirilməsi" aiddir.[256]

Tofiq Yaqublu işində hakimin davamlı olaraq müdafiə tərəfinin vəkilinə, sübutlara və iddialara kinli mövqe göstərməsi, onun subyektiv meyarlarla müdafiə tərəfinə qərəzli mövqeyini ifadə etmişdir.

Birincisi, yuxarıda müzakirə olunduğu kimi, hakim, müdafiə tərəfinin müvafiq şahidlərinin, məsələn, baş verən hadisələrin birbaşa şahidi olan M. Yaqublunun qardaşı oğlunun və T. Yaqublunun iddia etdiyi məhkəməyəqədər pozuntular barədə məlumatı ola biləcək istintaqa rəhbərlik etməyə kömək edən müstəntiqin çağırılması ilə bağlı vəsatətlərini rədd edib. Hakim bu vəsatətlərin təmin edilməməsi ilə bağlı heç bir izahat verməyib və bunun əksinə, ittiham tərəfinin şahidlərə dair heç bir vəsatətini rədd etməyib.

İkincisi, yuxarıda təfərrüatlı şəkildə qeyd edildiyi kimi, müdafiə tərəfinin ittiham tərəfinin şahidlərini çarpaz dindirməsi zamanı, hakim onun sözlərini kəsib və suallara məhəl qoymayıb. Bu suallar ittiham tərəfinin işindəki uyğunsuzluqları vurğulamaq məqsədi daşısa da, hakimin ardıcıl müdaxilələri, müdafiə tərəfinin ittiham tərəfinin iddialarını əsassız çıxarda biləcək ifadələrinə mane olub. Hakim, bunun əksinə, ittiham tərəfinin suallarına maneə olmayıb.

Üçüncüsü, hakim müdafiəyə kömək edən və ittiham tərəfinin iddialarını ixtisar edə biləcək maddi sübutlarla bağlı vəsatətlərini rədd edib. Məsələn, yuxarıda qeyd etdiyimiz kimi, hakim, polis əməkdaşı Malik Manafovun qəza zamanı harada olduğunu müəyyən etmək üçün onun telefon məlumatlarının əldə edilməsi ilə bağlı müdafiə tərəfinin vəsatətini rədd edib. Müdafiə tərəfi, ifadəsinin əksinə olaraq M. Manafovun hadisənin gedişatını əvvəldən

---

[255] Avropa İnsan Hüquqları Məhkəməsi, *Nikolas Kiprə qarşı,* Ərizə № 63246/10, 9 yanvar 2018-ci il, para. 52.
[256] *Id.*

izlədiyini iddia edib (T. Yaqublu Cəbrayılovlar gəlməzdən əvvəl M. Manafovu hadisə yerində gördüyünü iddia edib) və bu fakt, T. Yaqubluya qarşı uydurma işin aparıldığı ilə bağlı suallara müvafiq olub. Eyni şəkildə, məhkəmə, müdafiə tərəfinin işin uydurma olması ilə bağlı iddiasına birbaşa uyğun olan, Cəbrayılovların kimə və nə vaxt zəng etdiklərini müəyyən etmək üçün onların telefon qeydlərinin əldə edilməsi ilə bağlı vəsatətlərini rədd edib. Hakim Cəbrayılovun telefon qeydlərinin əldə edilməsi üzrə vəsatətinin rədd edilməsi ilə bağlı heç bir açıqlama verməyib. M. Manafovun telefon yazısı qeydlərinin alınması ilə bağlı vəsatətə gəldikdə isə, hakim bildirib ki, o, şahidləri telefonlarını verməyə məcbur edə bilməz (mobil telefon danışıqları qeydlərinin götürülməsi və cinayət işlərində sübutlara əlavə edilməsi tərəflər üçün gözlənilən bir prosedur olmasına baxmayaraq).

Hakim, həmçinin, müdafiə tərəfinin cənab və xanım Yaqublunun telefonlarına müdaxilə olunma ehtimalını qiymətləndirmək və hər hansı məlumatın bərpa oluna biləcəyini müəyyən etmək üçün məhkəmə-tibbi ekspertizasının keçirilməsi barədə vəsatətini rədd edib (müdafiə tərəfi iddia edib ki, həm cənab, həm də xanım Yaqublu hadisə zamanı onların iddialarını təsdiq edən foto ve videolar çəkib, lakin polis telefonlarını müsadirə edərkən onları silib). Hakim bu vəsatətin rəddi ilə bağlı heç bir izahat verməyib (hakim prosesin əvvəlində vəsatəti qəbul etsə də, sonda anidən məhkəmə-tibbi ekspertizasının aparıla bilməyəcəyi qərarını verib).

Dördüncüsü və yuxarıda qeyd olunduğu kimi, Tofiq Yaqublunu mühakimə edərkən, hakim müdafiə tərəfinin təqdim etdiyi bütün sübut və arqumentlərə məhəl qoymadan ittiham tərəfinin işini birmənalı olaraq qəbul edib. Hakim ittiham tərəfinin sübutlarındakı uyğunsuzluqların- polisin izahatları saxtalaşdırdığını göstərən ifadələr, məhkəmədən əvvəl polisə verilən yazılı izahatlarla ittiham tərəfi şahidlərinin məhkəmədə verdiyi ifadələrdəki saysız ziddiyətlər, müdafiə tərəfinin təqdim etdiyi videogörüntülər və Cəbrayılovun yüngül bədən xəsarətləri aldığını göstərən məhkəmə-tibbi ekspertizasının rəyi ilə polisin onun paltarının deşilmiş və qanlı olduğunu və vintaçanda qan damcıları olduğunu bildirən protokolu arasında uyğunsuzluqlar- aşkarlanmasına daha az əhəmiyyət verib.

Yuxarıda təsvir edilən hallar hakimin müdafiəyə qarşı kinli və subyektiv meyarla qərəzli mövqeyi olduğunu göstərməklə, T. Yaqublunun müstəqil və qərəzsiz məhkəməyə çatımlılıq hüququnu pozmuşdur.

## C. ƏDALƏT MÜHAKİMƏSİ İLƏ BAĞLI DİGƏR NARAHATLIQLAR

### Gizli Motiv- İttihamdan Sui-İstifadə

MSHP və AİHK fərdlərə hədə-qorxu gəlmək, onlara qarşı ayrı-seçkilik etmək və ya hüquqlarını həyata keçirdiklərinə görə cəzalandırmaq üçün məhkəmə icraatından sui-

istifadəni qadağan edir. Məsələn, BMT-nin İnsan Hüquqları Komitəsi müəyyən edir ki, insan hüquqları və jurnalist fəaliyyəti əsasıyla həbs edilmə Paktın 9(1) maddəsi ilə qorunan azadlıq hüququnu pozur.[257] AİHK-nin 18-ci maddəsində deyilir: "qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa, hər hansı digər məqsədlər üçün tətbiq olunmamalıdır."

İnsan Hüquqları Komitəsi məhkəmə araşdırmalarından sui-istifadə nəticəsində yaranan pozuntuların qiymətləndirilməsi üçün hələ də aydın meyarlar müəyyən etməsə də, AİHM-in məhkəmə təcrübəsi məhkəmə prosesinin qeyri-münasib motivlərlə aparıldığını qiymətləndirmək üçün öyrədici xarakter daşıyır.[258] İttiham irəli sürülərkən, həbslər və ittihamların xarakteri,[259] ittiham tərəfinin ittihamları irəli sürmək üçün əsaslı şübhələrinin olub-olmaması,[260] cinayət prosesinin necə aparıldığı[261] və son qərarın əsaslandırılmış və qanuni əsaslı olub-olmaması[262] kimi faktorların daxil olduğu siyasi kontekst nəzərə alınır.[263]

AHİM eyni zamanda, hüquqi prosesin həm münasib, həm də qeyri-münasib motivləri olduğu zaman, məhkəmənin münasib olmayan motivlərin "üstünlük" təşkil etdiyi hallarda, onu ədalət mühakiməsinin sui-istifadəsi kimi qiymətləndirəcəyini bəyan edir.[264] Bundan əlavə, dövlətin pis niyyətinə dair birbaşa sübutların aşkarlanmasının çətin olduğunu etiraf edən AİHM, qeyri-qanuni məqsədi işin hallarında əksini tapan sübutlarla göstərilə biləcəyi qərarına gəlir.[265] Sadə şəkildə desək, qeyri-qanuni məqsədin məhkəmə prosesi zaman

---

[257] İnsan Hüquqları Komitəsi, *Haciyev və Muradova Türkmənistana qarşı*, BMT Sənədi CCPR/C/122/D/2252/2013, 28 may 2018-ci il, para. 7.7.

[258] Avropa İnsan Hüquqları Məhkəməsi, Konvensiyanın 18-ci maddəsi üzrə Təlimat, Hüquq və Azadlıqların Məhdudlaşdırılmasının Sərhədləri, 31 avqust 2022-ci il, para. 57. https://www.echr.coe.int/Documents/Guide_Art_18_ENG.pdf.

[259] Avropa İnsan Hüquqları Məhkəməsi, *Məmmədov Azərbaycana qarşı*, Ərizə № 15172/13, 29 may 2019-cu il, para. 187-189.

[260] Avropa İnsan Hüquqları Məhkəməsi, *Xodorkovski Rusiyaya qarşı*, Ərizə № 5829/04, 31 may 2011-ci il, para. 258; Avropa İnsan Hüquqları Məhkəməsi, *Xodorkovski və Lebedev Rusiyaya qarş*ı, Ərizə № 11082/06 və 13772/05, 25 iyul 2013-cü il, para. 908.

[261] Avropa İnsan Hüquqları Məhkəməsi, *Navalni Rusiyaya qarşı,* Ərizə № 29580/12, 15 noyabr 2018-ci il, para. 171.

[262] Avropa İnsan Hüquqları Məhkəməsi, *Nastase Rumıniyaya qarşı*, Ərizə № 80563/12, 11 dekabr 2014-cü il, para. 107.

[263] Avropa İnsan Hüquqları Məhkəməsi, *Merabişvili Gürcüstana qarşı*, Ərizə № 72508/13, 28 noyabr 2017-ci il, para. 320-322.

[264] Avropa İnsan Hüquqları Məhkəməsi, *Merabişvili Gürcüstana qarşı,* Ərizə № 72508/13, 28 noyabr 2017-ci il, para. 305.

[265] *Id.* Para. 316-317*;* Avropa İnsan Hüquqları Məhkəməsi, *İbrahimov və Məmmədov Azərbaycana qarşı*, Ərizə № 63571/16, 13 fevral 2020-ci il, para. 147.

“əsasən üstünlük təşkil etdiyini” göstərən “kifayət qədər güclü, aydın və uyğun nəticələrin birgə mövcudluğu” olduqda, prosesdən sui-istifadə edildiyi aşkarlana bilər.[266]

AİHM-in Navalni Rusiyaya qarşı işi üzrə qərarı T. Yaqublu kimi siyasi dissidentin sıxışdırılması kontekstində prosesdən sui-istifadə ilə bağlı faydalı təlimat verir. AİHM Navalnının təkrar tutulmasının və həbsinin- daxili siyasi prosesdə iştirakının qarşısını almaq məqsədilə-[267] Avropa Konvensiyasının 18-ci maddəsinin pozuntusu olduğunu müəyyən etmişdir (siyasi müxalifətə qarşı təqib nümunələri, bəzi həbslərin əsaslandırılmaması və ona qarşı icraatın nöqsanlı olması kimi əlamətlərə istinad edib).[268]

AİHM-in bu meyarlarına əsasən, Tofiq Yaqublu işi prosesdən sui-istifadə olunduğunu deməyə əsas verir. Bu tapıntını dəstəkləyən ən mühüm amillər 1) təqibin baş verdiyi siyasi kontekst; 2) T. Yaqublunun jurnalist və müxalifət lideri kimi fəaliyyət göstərdiyi illərdə ona qarşı açılan çoxsaylı cinayət işlərinin təzyiq nümunəsi xarakteri daşıması 3) Prezidentin müxalifət qruplarını kəskin şəkildə pisləyən çıxışından bir neçə gün sonra T. Yaqubluya qarşı  açılan cinayət işinin vaxtının üst-üstə düşməsi; 4) T. Yaqublunun həbsindən sonra dövlət məmurlarının kinli ifadələri; 5) məhkəməyə sədrlik edən hakimin işi qüsurlu aparması; və 6) ittiham tərəfinin sübutlarında ciddi uyğunsuzluqlar və boşluqların olması olub.

Birincisi, yuxarıda qeyd edildiyi kimi, hakimiyyət ədalət mühakiməsindən siyasi müxalifət qruplarının üzvlərinə və hökuməti tənqid edənlərə, o cümlədən jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı istifadə edib. Məsələn, Avropa İnsan Hüquqları Məhkəməsi 2018-ci il işində “hüququn aliliyini pozaraq hökumət tənqidçilərinin, vətəndaş cəmiyyəti fəallarının və hüquq müdafiəçilərinin qisasçı mühakimələr və cinayət icraatından sui-istifadə yolu ilə əsassız tutulma və həbslərinin narahatlıq doğurduğunu” vurğulamışdır.[269] Freedom House-un 2022-ci il üzrə Azərbaycanla bağlı hesabatında eyni şəkildə “müxalifət fəalları, digər fəallar və tənqidçi jurnalistlərə qarşı qaldırılan çoxsayl qondarma və ya qüsurlu işlərə” istinad edilirsə,[270] RSF isə müstəqil jurnalistlərin “absurd bəhanələrlə həbsə atıldığını” bildirir.[271] Tofiq Yaqublu müxalifət üzvü, keçmiş jurnalist və hüquq müdafiəçisi

---

[266] Avropa İnsan Hüquqları Məhkəməsi, *Merabişvili Gürcüstana qarşı*, Ərizə № 72508/13, 28 noyabr 2017-ci il, para.314; Avropa İnsan Hüquqları Məhkəməsi, Əliyev Azərbaycana qarşı, Ərizə № 68762/14 və 71200/14, 20 sentyabr 2018-ci il, para.200.
[267] Avropa İnsan Hüquqları Məhkəməsi, *Navalni Rusiyaya qarşı*, Ərizə № 29580/12, 15 noyabr 2018-ci il, para. 174-176.
[268] *Id.* Para. 167-176 *(Sui-istifadənin başqa bir əlamətinin cavabdehin oxşar vəziyyətdə olan şəxslər arasından hədəfə alındığını qeyd edir).*
[269] Avropa İnsan Hüquqları Məhkəməsi*, Əliyev Azərbaycana qarşı iş*, Ərizə №. 68762/14 və71200/14, 20 sentyabr 2018-ci il, ingilis versiya para. 223.
[270] Bax, Freedom House, *Dünyada Azadlıq 2022, 2021 və 2022-ci illər üzrə inkişaf,* https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2022; Human Rights Watch, Təzyiq, Həbs və Sürgün Edilən, 20 oktyabr 2016-cı il, https://www.hrw.org/report/2016/10/20/harassed-imprisoned-exiled/azerbaijans-continuing-crackdown-government-critics.
[271] Sərhədsiz Repartyorlar Birliyi, *Azərbaycan 2023*, https://rsf.org/en/country/azerbaijan.

olduğundan, onun təqibi müxalif səslərə qarşı təzyiqlərin sənədləşdirilmiş nümunələri ilə üst-üstə düşür.

İkincisi, T. Yaqublunun fəallığı ilə bağlı dəfələrlə ədliyyə sisteminin qarmağına məruz qalması onun hakimiyyətin hədəfində olmasından xəbər verir. 1998-ci ildə Tofiq Yaqublu icazəsiz kütləvi etiraz aksiyasında iştirak etdiyinə görə təqsirli bilinərək iki il altı ay (2 il 6 ay) islah işləri cəzası alıb.[272] O, 2013-cü ildə müstəqil "Yeni Müsavat" qəzetində işləyərkən kütləvi iğtişaşlar təşkil etmə və dövlət məmurlarına qarşı təhlükə törətməkdə ittiham olunaraq 5 il müddətinə azadlıqdan məhrum edilib.[273] Bu işə münasibətdə isə, Məhkəmə xüsusi olaraq qərara alıb ki, Tofiq Yaqublunun tutulması və həbsi Avropa Konvensiyasının 5-ci maddəsini (azadlıq və təhlükəsizlik hüququ) pozub, çünki hökumət, onun cinayət əməli törətdiyinə dair "əsaslı şübhənin" olduğunu sübut edə bilməyib."[274] İki il həbsdə qaldıqdan sonra T. Yaqublu 2016-cı ilin martında prezidentin əfv sərəncamı ilə azadlığa çıxıb.[275] Tofiq Yaqublu həmçinin qanun pozuntuları ilə müşahidə olunan çoxsaylı inzibati işlərə, Avropa İnsan Hüquqları Məhkəməsinin qanunsuz və pis niyyətli hesab etdiyi iki tutulma və həbsə məruz qalıb.[276]

Üçüncüsü, Yaqubluya qarşı xuliqanlıq işi hökuməti tənqid edənlərə qarşı daha genişmiqyaslı repressiyalarla üst-üstə düşür. Daha dəqiq, 2020-ci il martın 19-da Prezident İlham Əliyev Novruz bayramını qeyd edərkən bunları deyib:

> Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir, həmin o beşinci kolondan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik hələ bilinmir nəyə gətirib çıxaracaq. Ona görə bu xəstəlik dövründə tamamilə yeni münasibətlər qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa

---

[272] Blacani Caucaso, Azərbaycan: Yaqublu işi, 14 sentyabr 2020-ci il, https://www.balcanicaucaso.org/eng/Areas/Azerbaijan/Azerbaijan-the-Yagublu-affair-204838.

[273] Beynəlxalq Əfv Təşkilatı, *Hüquq Müdafiəsinin Təqsiri: Azərbaycanın İnsan Hüquqları Müdafiəçiləri və Fəalları Barmaqlıqlar Arxasında*, 4 mart 2015-ci il, https://www.amnesty.org/download/Documents/EUR5510772015ENGLISH.pdf.

[274] Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №.31709/13, 5 noyabr 2015-ci il, para. 62.

[275] Freedom House, *Dünyada Azadlıq 2017, 2016 və 2017-ci illər üzrə inkişaf,* https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2017.

[276] Bax, Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №.69686/12, 15 iyul 2021-ci il, para. 56-60.

> fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu beşinci kolonun nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaq. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, beşinci kolon, milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər.[277]

T. Yaqublu bu çıxışdan dərhal sonra müsahibələrində və sosial şəbəkələrdə bu ifadələri tənqid edən müxtəlif paylaşımlar edib.[278] Qeyd edək ki, prezidentin çıxışı 19 mart 2020-ci ildə yayımlanıb və Tofiq Yaqubluya qarşı ittihamların əsasını təşkil edən qəza bir neçə gün sonra, 22 mart 2020-ci ildə baş verib. Bir sıra hesabatlara əsasən, çıxışdan sonra üç həftə ərzində bir neçə başqa müxalifət fəalı və hökuməti tənqid edənlər də müxtəlif ittihamlarla həbs edilib.[279]

Dördüncüsü, yuxarıda deyildiyi kimi, T. Yaqublu işi ilə bağlı dövlət məmurları, məsələn Daxili İşlər Nazirliyinin mətbuat katibinin hadisədən cəmi bir gün sonra, araşdırmalar başa çatmamış, "yol-nəqliyyat hadisəsi Tofiq Yaqublunun öz təqsiri üzündən baş verdiyi halda, o, əsaslı səbəb olmadan mübahisə edərək, Elxan Cəbrayılovu və onun sərnişin olan həyat yoldaşı Cəvahir Cəbrayılovanı yumruq və vintaçanla vuraraq onlara müxtəlif dərəcəli bədən xəsarətləri yetirib. Hadisə yerinə polis əməkdaşları gəliblər"[280] dediyi bir sıra düşmənçilik xarakterli bəyanatlar veriblər. Hökümət məmurunun hadisədən dərhal sonra və işə baxılmazdan əvvəl Tofiq Yaqublunu Elxan Cəbrayılova hücumda təqsirli bilməsi, məhkəmə prosesinin siyasi əhəmiyyət daşıdığının növbəti göstəricisidir.

Beşincisi, bu hesabatda sənədləşdirildiyi kimi, işə sədrlik edən hakim müdafiə tərəfinə qərəzli münasibət bəsləyəcək şəkildə prosesi aparıb. Bu özünü, hakimin müdafiə tərəfinin ittiham tərəfinin şahidlərinin dindirilməsinə dəfələrlə müdaxiləsində, müdafiənin müvafiq şahidlərinin çağırılması və müvafiq sübutların əldə edilməsinə dair vəsatətlərindən imtina etməsində, və bütün müdafiə arqumentlərini və sübutlarını rədd edən, eləcə də bütün qeyri-müəyyənlikləri və ziddiyyətləri ittiham tərəfinin xeyrinə həll edən hökmü ilə nümayiş etdirib. Hökumət tənqidçisinə qarşı qaldırılan bu işdə qərəzsizliyin aşkarlığı, Azərbaycan

---

[277] İlham Əliyevin Novruz Bayramı Münasibətilə Azərbaycan Xalqına Təbriki, 19 mart 2020-ci il, https://president.az/az/articles/view/36212.
[278] Avropa İnsan Hüquqları Məhkəməsi, *Yaqublu Azərbaycana qarşı iş*, Ərizə №.41020/20, 17 mart 2023-cü il.
[279] Bax, HRW, *Azərbaycan: Pandemiya şəraitində tənqidçilərə qarşı təzyiq*, 16 aprel 2020-ci il, https://www.hrw.org/news/2020/04/16/azerbaijan-crackdown-critics-amid-pandemic ("Son həftələrdə hakimiyyət ən azı altı fəalı və bir müxalifətyönlü jurnalisti Covid-19 qaydalarını pozmaq və ya polis əmrlərinə tabe olmamaq da daxil olmaqla saxta ittihamlarla 10 ilə 30 gün arasında həbs cəzasına məhkum edib").
[280] Modern.AZ, *Tofiq Yaqublu cütlüyü yumruq və vintaçan ilə vurub – Daxili İşlər Nazirliyi*, 23 mart 2020-ci il, https://m.modern.az/az/news/232130/tofiq-yaqublu-er-arvadi-yumruq-ve-vintacanla-vurub-daxili-isler-nazirliyi.

məhkəmə sisteminin siyasi məhkəmələrdə müstəqil olmaması, hakimlərin və prokurorların hökumətdən göstərişlər alaraq nəticələri əvvəlcədən müəyyən etdiyi ilə bağlı geniş yayılmış hesabatlarla da təsdiq edilir.[281]

Altıncısı, bu hesabat boyu təsvir olunduğu kimi, ittiham tərəfi əksi sübut edilə biləcək çoxsaylı uyğunsuzluqlarla zəngin olmuş və müdafiə tərəfi buna müvafiq, Tofiq Yaqublunun Cəbrayılovlar tərəfindən hücuma məruz qalması ilə bağlı iddiasını dəstəkləyən əsaslı arqumentlər və sübutlar ortaya qoymuşdur.

Yuxarıda deyilənləri nəzərə alaraq, Tofiq Yaqubluya qarşı icraatın, "prosesdən sui-istifadə" standartlarına cavab verdiyi qənaətinə gəlmək üçün əsaslar var.

.

---

[281] Bax, ABŞ Dövlət Departamenti, *İnsan Hüquqları Təcrübələri üzrə 2022 Ölkə Hesabatları: Azərbaycan, 2023,* https://www.state.gov/reports/2022-country-reports-on-human-rights-practices/azerbaijan/. Bax həmçinin, Freedom House, *Dünyada Azadlıq 2022, 2021 və 2022-ci illər üzrə inkişaf,* https://freedomhouse.org/country/azerbaijan/freedom-world/2022.

# YEKUN V ƏQİYMƏTLƏNDİRMƏ

Tofiq Yaqubluya qarşı icraat beynəlxalq insan hüquqları standartlarını, xüsusən də AİHK-nin 6 və 18-ci maddələrində nəzərdə tutulan normaları pozub. Bu ittiham üzrə iş də, Azərbaycan hökumətinin müstəqil jurnalistləri və siyasi müxalifət fəallarını həbslər, inzibati və ya cinayət ittihamları ilə hədəfə almasını əks etdirən ümumi mənzərənin bir parçasıdır. Məhkəmə iclas protokolu hökumətin məhkəmədənkənar ictimaiyyətə açıq şəkildə nümayiş etdirdiyi hərəkətlər və bəyanatları kontekstində T. Yaqublunun mühakimə olunmasını onun hökumət əleyhinə siyasi fəallığı ilə əlaqədar olduğuna işarə edir və hökumətin bu gizli motivinin Tofiq Yaqublunun sözügedən işdə ədalətli məhkəmə araşdırması hüququnu pozduğunu təsdiq edir.

**Qiymətləndirmə: D**

# ƏLAVƏ

## QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI

Ekspertlər digər meyarlarla yanaşı, məhkəmənin müvafiq beynəlxalq insan hüquqları normalarına necə və nə dərəcədə riayət etdiyini A, B, C, D və ya F dərəcələri üzrə qiymətləndirirlər. Bunların içərisində:

- Baş vermiş pozuntu(lar)ın ağırlığı;
- Pozuntu(lar)ın məhkəmə araşdırmasının nəticələrinə təsir edib-etməməsi;
- İttiham tamamilə və ya qismən qeyri-münasib motivlərlə- siyasi, iqtisadi, və məsələn, “irqi, rəngi, cinsi, dili, dini, siyasi və ya digər əqidə, milli və ya sosial mənşə, əmlak, doğum və ya digər statuslar”
- [1]əsasında ayrı-seçki motivlərlə və insan hüquqları müdafiəsinə görə qisas xarakterli (hətta cavabdeh son nəticədə bəraət qazansa da) - irəli sürüldükdə;
- İttihamlarla bağlı zərərin miqyası (o cümlədən, lakin bununla məhdudlaşmayaraq, müttəhimin əsassız olaraq məhkum edilib-edilməməsi və əgər belədirsə, təyin edilmiş cəza; müttəhimin məhkəməyə qədər əsassız həbsdə saxlanılıb-saxlanılmaması, hətta müttəhimin məhkəmədə bəraət alması halları olduqda; təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittiham və ya məhkəmə araşdırması ilə bağlı pis rəftara məruz qalıb-qalmaması; və/və ya ittihamın irəli sürülməsi nəticəsində müttəhimin nüfuzuna nə dərəcədə xələl gəməsi); və
- Müttəhimin mühakimə olunduğu qanun və prosedurun beynəlxalq insan hüquqları normalarına uyğunluğu.

### Qiymətləndirmə Dərəcələri

• A: Monitorinqin nəticələrinə əsasən, beynəlxalq standartlara uyğun gələn məhkəmə işi.
• B: Xırda pozuntular istisna olmaqla, ümumiyyətlə müvafiq insan hüquqları standartlarına uyğun gələn və pozuntunun(lar) nəticəyə heç bir təsiri olmadığı və əhəmiyyətli zərərlə nəticələnmədiyi məhkəmə işi.
• C: Beynəlxalq standartlara cavab verməyən, lakin pozuntunun(lar) nəticəyə heç bir təsiri olmadığı və əhəmiyyətli zərərlə nəticələnmədiyi məhkəmə işi.
• D: Nəticəyə təsir edən və/yaxud əhəmiyyətli zərərlə nəticələnən bir və ya bir neçə beynəlxalq standartların pozuntusu ilə xarakterizə olunan məhkəmə işi.
• F: Nəticəyə təsir edən və/və ya əhəmiyyətli zərərlə nəticələnən və beynəlxalq standartların kobud şəkildə pozuntusu ilə xarakterizə olunan məhkəmə işi.

---

[1] MSHP, maddə 26.